Günəş Şərqdən doğur!

❒ № 4 (5285), 2021-ci il

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

Qiyməti 40 qəpik

www.sherg.az 9 yanvar 2021-ci il (şənbə)




## 532 nəfər yoluxub, 24 nəfər vəfat edib

Azərbaycanda daha 1 879 nəfər koronavirusdan sağalıb

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 532 yeni yoluxma faktı qeydə alınıb, 1 879 nəfər müalicə olunaraq sağalıb.

(Səh.9)

## May ayına qədər pandemiya nəzarət altına alınacaq

Dünya tədricən əvvəlki vəziyyətinə qayıdacaq



COVID-19 Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan olunandan bəri bütün ölkələr bu virusla mübarizəyə qalxıb və savaş aparır.

(Səh.14)

### Günün içindən...



## Qarabağ qazisi “YAŞAT" Fonduna rəhbər təyin edildi

”Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fonduna (”YAŞAT” Fondu) rəhbər və müdir müavini seçilib. Fondun rəhbəri vəzifəsinə Vətən müharibəsi qazisi Elvin Hüseynov, müdir müavini vəzifəsinə isə Rəbiyyə Cəfərova seçilib.

(Səh.5)

## Kamran Əliyev: “Ötən il 30 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib"



**Hesabat dövründə xidməti fəaliyyətində yol verdikləri nöqsanlara görə 30 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib.**

Baş Prokuror Kamran Əliyev dünən keçirdiyi əməliyyat müşavirəsində deyib.

(Səh.4)

# Beynəlxalq müqavilə imzalanmayıb





## Azərbaycan və Ermənistan arasında vizadan azad etmədən danışmaq əsassızdır

**“Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında vətəndaşların səfərləri və vizadan azad olunma məsələləri barədə danışmaq üçün ilk növbədə dövlətlər arasında diplomatik münasibətlər qurulması vacibdir”.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in sualını cavablandırarkən deyib.

(səh.3)

## Qarşıdurma güclü dövləti sarsıdıb

ABŞ-da gözə görünməyən qüvvələrin mübarizəsi gedir

(səh.5)



## Ermənilər Heydər Əliyevdən Kremlə şikayət etmişdilər ki...

“...Qarabağ xanının vəziri Vaqifə heykəl qoyub”

(səh.8)

## Türk birliyi gec-tez yaranacaq

Rusiya indiki siyasətini davam etdirsə, tamamilə təcrid olunacaq

(səh.3)

## “Şuşanı Yasamalın gününə salmayaq”

Tanınmış memar Qarabağın quruculuğuna kömək etmək istəyir

(səh.13)

## Qarabağa dönəcəklər

Jurnalistlər yurdlarına qayıdıb ata ocağının çırağını yandırmaq istəyir

(səh.7)



## “Şuşaya gedən yolları minalamışdılar”

“Topxana meşəsinin içi ilə yuxarı qalxdıq”

(səh.9)

## “Rüstəm Muradov başqası ilə əvəzlənə bilər”



Yanvarın 11-də baş tutacaq görüş Azərbaycan tərəfinin diktəsi ilə keçəcək

(səh.4)

# Qarabağda "DOST"lar da olacaq

## "Əhalinin yerlərdə gəlir gətirən torpağa sahib olmaları vacib şərtdir"




**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıbov bildirib ki, 2021-ci ildə daha iki "DOST" Mərkəzinin açılışı planlaşdırılır. Onun sözlərinə görə, yeni mərkəzlər Binəqədi və Abşeron rayonunda olacaq:**

"Quba və Bərdə rayonlarında "DOST" mərkəzlərin açılması üzrə işlərə başlanılacaq. 2025-ci ilə qədər 31 "DOST" Mərkəzi istifadəyə verilməklə, bütün respublikanı əhatə edəcəyik".

"İşğaldan azad edilmiş ərazilərimizdə infrastrukturun canlanması, sosial xidmət müəssisələrinin bərpası istiqamətində də planlarımız var. Qarabağda "DOST" Mərkəzləri, Sosial reabilitasiya müəssisələrinin açılması planlaşdırılır", - deyə o, əlavə edib.

**Siyasi analitik Züriyə Qarayeva bu barədə "Şərq"ə deyib ki, son 10 ildə ölkəmizdə aparılan uğurlu iqtisadi islahatlar, dövlətin maliyyə ehtiyatlarının və iqtisadi potensialının artmasına gətirdi.** Prezident İlham Əliyevin 2020-ci ilin yekunlarına həsr olunan müşavirədə əsas diqqəti bu potensialın işğaldan azad olunmuş bölgələrin dirçəldilməsinə yönəltməsi çox təqdirəlayiq hesab olunur. Prezidentin söylədiyi kimi, hər şəhər üzrə vahid konsepsiya hazırlanmalıdır. Paralel olaraq, kəndlərin bərpası ilə bağlı vahid yanaşma olmalıdır. Ona görə ki, Ermənistan ordusunun işğalına qədər bəzi kəndlərdə yaşayan insanların sayı çox az idi, təqribən 20-30 nəfər. Təbii ki, ilk növbədə, böyük yaşayış məntəqələrinin bərpasına kapital qoyulmalıdır. Torpaq islahatı aparılmalıdır. Əhalinin yerlərdə gəlir gətirən torpağa sahib olmaları vacib şərtdir. Ölkə başçısı ermənilər tərəfindən vəhşiliklə qırılmış meşə sahələrinin bərpasına və turizm sahələrinin yaranmasına da önəm verdiyini bildirdi. Bu sözlərlə ölkə başçısı həm 30 ilə yaxın doğma yurdlarının həsrətində olan məcburi köçkünlərdə öz torpaqlarına qayıtmaq əminliyini artırmış oldu, həm də Ermənistana revanşist əhvalından uzaqlaşmalı olduğunu vurğuladı".

O, Qarabağda tikiləcək aeroport haqqında da danışıb: "Beynəlxalq yükdaşımaların və sərnişinlərin səfərlərinin rahatlığında aviareyslərin və hava limanlarının çox böyük faydası vardır. Bu məqsədlə prezidentin tapşırığı ilə Laçın və ya Kəlbəcər rayonlarından birinin ərazisində aeroport tikilməsi üçün əlverişli relyefin araşdırılmasına göstəriş verib. Yüksək dağlıq ərazilərdə yerləşən bu bölgədə hamar relyefin seçilməsi çətin olsa da, həmişə olduğu kimi Prezident İlham Əliyevin əzmkarlığı, dağlar qoynunda müasir tələblərə cavab verən hava limanının tikilməsi ilə buralara xarici investisiyaların cəlb olunmasına təkan verəcək. Füzulidə beynəlxalq hava limanının tikilməsi də strateji əhəmiyyət kəsb edir. Kiçiktutumlu təyyarələrin qəbulu üçün inşa edilmiş və beynəlxalq standartlara cavab verməyən Xocalı aeroportunun bağlanması gündəmə gələ bilər. Hazırda limanın yerləşdiyi ərazilər bizim nəzarətimizdə olmasa da, hava məkanı Azərbaycanın nəzarətindədir. Ermənistandan Xocalı aeroportuna heç bir uçuş həyata keçirilə bilməz. İstənilən icazəsiz uçuş legitim hərbi hədəf olacaq. Azərbaycan bu barədə dəfələrlə xəbərdarlıq edib. Rusiya tərəfi sülhməramlılara logistik dəstək üçün Xocalı aeroportunun açılmasını israr edir. Hətta bu limanın açılışı tarixini də yanvarın 10-na anons ediblər. Azərbaycan isə haqlı olaraq, buna razılıq vermir. Yəni bu, siyasi-strateji əhəmiyyət kəsb edən məsələdir. Biz buna icazə versək, arzuolunmaz fəsadlar ortaya çıxa bilər. Rusiya ən azı beş il Qarabağda olacaq. Bu baxımdan Füzulidə açılacaq aeroport vasitəsilə Rusiya təyyarələri Azərbaycanın nəzarəti altında eniş edəcək. Bununla da Rusiyanın Xocalıdakı aeroportdan birtərəfli şəkildə istifadəsinin qarşısı alınacaq. Qarabağda olan Türkiyə hərbçiləri üçün də Füzuli aeroportunun əhəmiyyəti böyük olacaq. Həm Azərbaycanın, həm də Türkiyənin maraqlarına cavab verəcək Füzuli hava limanı həm də Avropa və Asiya ölkələri arasında tranzit rolu oynayacaq beynəlxalq statusa malik olacaq. Azərbaycanın hava məkanında logistik kodlar ölkəmizə məxsus olduğundan, Xocalı aeroportunun beynəlxalq aviasiya sistemindən çıxarılması gözlənilir".

**Z.Qarayevanın fikrincə, bu, düşməni daha da çıxılmaz vəziyyətə qoyacaq:** "Zənnimcə, artıq inşasına start verilən avtomobil, dəmiryolu və aeroportlar, yaxın gələcəkdə ölkəmizin beynəlxalq kommunikasiya xətlərinin, tranzit karbohidrogen ötürücü xətlərin keçdiyi dövlət kimi beynəlxalq arenada çəkisini daha da artıracaq. Uğurlu neft strategiyası, düşünülmüş iqisadi islahatlar, müdafiə sənayesi kompleksinə söykənən hərbi strategiya və balanslaşdırılmış xarici siyasət, həmişə kimlərinsə vassalı olmuş ermənilərin Azərbaycana qarşı torpaq iddialarını puç edəcək".

**Kənan Novruzov**





# Prezident Polşa və Bolqarıstandakı səfirləri geri çağırdı

## Azərbaycanı Polşada bundan sonra Nərgiz Qurbanova təmsil edəcək

**Prezident İlham Əliyev Həsən Həsənovun Azərbaycanın Polşadakı fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Həsən Əziz oğlu Həsənov Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.

Prezidentin imzaladığı başqa bir sərəncamla Nərgiz Akif qızı Qurbanova Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb. Dövlət başçısının digər sərəncamı ilə Nərgiz Akif qızı Qurbanova Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

# BMT Baş Assambleyasının plenar iclası keçiriləcək



**Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyasının 75-ci sessiyasının plenar iclası keçiriləcək.**

APA-nın xəbərinə görə, bu barədə BMT Baş Assambleyasının prezidenti Volkan Bozkır bildirib. O qeyd edib ki, 21 və 27 yanvar tarixlərində qeyri-formal iclaslar, 28 yanvarda isə formal plenar iclas keçiriləcək.

İclasda BMT-nin Baş katibi Antonio Quterreş iştirak edəcək. Baş katib 2021-ci il üçün prioritetləri təqdim edəcək.

# ABŞ-da qanlı seçki...

## Dünyaya demokratiyadan dərs keçən ölkə tarixin qaranlıq səhifəsinə düşdü

ABŞ Konqresi Kapitoli binasında baş verən iğtişaşlar və Vaşinqtonda tətbiq edilən komendant saatı rejiminə baxmayaraq Co Baydenin prezident seçkilərində qələbəsini təsdiqləyib. Yerli telekanallar bildirir ki, Co Bayden seçkilərin Konqres tərəfindən təsdiqlənən 270-dən çox səsini qazanıb.

Konqresdəki müzakirələr Vaşinqtonda Donald Tramp tərəfdarlarının Kapitoli binasına daxil olması zamanı baş verən iğtişaşlar fonunda keçirilir.

Səslərin təsdiqlənməsi ölkədə prezident seçkilərinin nəticələri ilə bağlı mübahisələrin davam etməsi üçün bütün konstitusiya imkanlarının qarşısını alır.

Kapitoli binası qarşısında baş verən etiraz aksiyası və iğtişaşlar zamanı 4 nəfər həlak olub. Həmçinin iğtişaşlar zamanı paytaxt polisinin ən azı 14 əməkdaşının da xəsarət aldığı bildirilir. Baş verən hadisədə Rusiyanın "əli"nin olduğuna dair bəzi iddialar da səsləndirilir.

**ABŞ-dakı prosesləri "Şərq"ə dəyərləndirən "Atlas" Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlunun açıqlamasına görə, D.Tramp prezident seçilləndə ortaya iddialar atılmışdı ki, o guya, Rusiyanın köməyi ilə seçildi:** "Tramp 4 il ərzində bu iddiaları ortadan qaldırmağa çalışsa da, müyəssər ola bilmədi. İndi də başqa versiya ortaya atılır ki, yenə Amerikadakı hadisələrdə Rusiyanın "əli" var. Guya, Rusiya Baydenin rahatlıqla hakimiyyətə sahiblənməsinə imkan vermək istəmir. Ona görə

**Hegemon dövlətdə baş verən son hadisələr Rusiya, Türkiyə və İranın maraqlarına uyğun gəldi**



Tramp tərəfdarlarını bu cür həvəsləndirir. Əslində bəllidir ki, Tramp özü öz tərəfdarlarını Kapitoli qarşısına səsləyib və siyasi naşılıq nümayiş etdirib".

**Politoloq vurğulayıb ki, ABŞ-dakı son hadisələr Rusiya, Türkiyə və İranın maraqlarına cavab verdi:** "Çünki Amerika bir çox dövlətlərə həmişə demokratiya və insan haqları mövzusunda dərs verməyə çalışıb. Rəngli inqilablar, ərəb baharı kimi hadisələr baş verdi. Amerika hər yerdə dəyişikliklər etməyə və hakimiyyətləri yıxmağa çalışırdı. İndi isə eyni proseslər öz daxilində baş verir. Əlbəttə ki, burada Rusiyanın maraqları var.

Hazırda Rusiyada belə bir düşüncə hökm sürür: Necə ki, Trampın hakimiyyəti sual altında qoyulurdu, Bayden də hakimiyyətə qan üzərində gəldi. Son məlumatlara görə, iğtişaş zamanı 4 nəfər ölüb.

Yəni Rusiya bu məsələlərdə "dili uzun" oldu. Bu, Amerika üçün çox böyük faciəyə çevrildi. Konqresə 200 ildə 2-ci dəfədir ki, belə hücum təşkil edilir.

Həqiqətən də bundan sonra ABŞ-ın kiməsə dərs keçib, nəsə öyrətməsi çətin olacaq. Amma hesab etmirəm ki, Rusiyanın bu məsələdə birbaşa "əli" var. Əlbəttə, hadisələrin bu cür şəkil alması nəinki Rusiyanın, Çin, İran, Türkiyə və Amerikanın hədəf aldığı bir çox ölkənin maraqlarına səbəb oldu".

**Yeganə Bayramova**

# Türk birliyi gec-tez yaranacaq

## Rusiya indiki siyasətini davam etdirsə, tamamilə təcrid olunacaq

**Son vaxtlar gündəmin əsas mövzularından biri də MDB ölkələrinin bu qurumun tərkibindən çıxmaq istəyidir. Orta Asiya ölkələri, xüsusi ilə Qazaxıstan sözügedən qurumla yollarını ayırmağa çalışır. Əlbəttə, bu, Rusiyanın xoşuna gəlmir.**

Kremlin rəsmi səviyyədə "Biz Qazaxıstanın torpaqlarını ona hədiyyə etmişik" bəyanatı da bunun bariz nümunəsidir. Rusiya regionu Bağdada, özünü isə kor xəlifəyə bənzətməkdə davam edir. Amma hər səbrin bir sonu olur axı...

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev bu barədə "Şərq"ə danışıb. Onun fikrincə, hadisələrin gələcək inkişafı Rusiyanın davranışlarından asılıdır:** "Moskva o ölkələrə təzyiq göstərməklə, oralarda hərbi baza yaratmaqla heç nəyə nail ola bilməz. Dünya artıq dəyişib. Rusiya hələ türk dövlətlərinə təzyiq edir, ərazi iddiaları irəli sürür. Qazaxıstanla münasibətlər bunun təsdiqidir. Amma dediyim kimi, indi dünya dəyişib. Ölkələr qarşılıqlı əməkdaşlıq axtarırlar. Moskva bunu başa düşməli və siyasətini korrektə etməlidir".



*F.Quliyevin fikincə, yeni formatın yaranması zərurətə çevrilib:* "Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın da dediyi kimi, "iki millət, bir dövlət" formatı artıq "beş millət, bir dövlət"lə əvəzlənib. Bəziləri hesab edirlər ki, türk dövlətlərinin birliyinin yaranması təhlükəlidir. Amma əsla belə deyil. Onlar sadəcə imkanlarını birləşdirmək, qarşılıqlı əməkdaşlıq etmək və lazım gələndə vahid təhlükəyə qarşı birgə mübarizə aparmaq istəyirlər.

Mən hələ 1998-ci ildə yazdığım "Yeni dünya düzəni siyasətində Azərbaycanın yeri və rolu" kitabımda transkontinental bir Turan bloku ideyasını ortaya qoymuşdum.

Avropa İttifaqı xristian dəyərlərinə və yunan fəlsəfəsinə söykənir. Türk dövlətləri Avropaya inteqrasiya etməkdənsə, türk-islam ənənəsinə söykənən el yarada bilər. Vətən müharibəsindən sonra yaranan şərait də yeni bir formatı diktə edir. Yəni türk birliyi gec-tez yaranacaq. Amma Rusiya indiki siyasətini davam etdirsə, tamamilə təcrid olunacaq. Biz qonşuluğun, əməkdaşlığın tərəfdarıyıq.

Azərbaycan və Türkiyə dövlət başçılarının təklif etdikləri 6-lıq formatı bunu təsdiqləyir. MDB, belə demək mümkünsə, ölü sistemdir. Transkontinental blokun yaranması isə zamanın tələbidir. Bu, ona daxil olacaq ölkələrin həm inkişafı, həm də müdafiə üçün əhəmiyyətlidir".

**Kənan Novruzov**

# Beynəlxalq müqavilə imzalanmayıb

## Azərbaycan və Ermənistan arasında vizadan azad etmədən danışmaq əsassızdır



**"Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında vətəndaşların səfərləri və vizadan azad olunma məsələləri barədə danışmaq üçün ilk növbədə dövlətlər arasında diplomatik münasibətlər qurulması vacibdir".**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in sualını cavablandırarkən deyib.

XİN rəsmisi qeyd edib ki, diplomatik münasibətlərin qurulması üçün isə qarşılıqlı şəkildə suverenlik və ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığını tanımaq və hörmət etmək lazımdır: "Qeyd etmək istərdik ki, iki ölkə arasında gediş-gəlişi tənzimləyən hər hansı beynəlxalq müqavilə imzalanmayıb. Odur ki, hazırkı mərhələdə qarşılıqlılıq prinsipi əsasında vizadan azad etmədən danışmaq əsassızdır".

*Qeyd edək ki, Ermənistan XİN etibarlı pasportlar əsasında vətəndaşları viza almaq ehtiyacından azad olan ölkələrin siyahısını yeniləyib. Yenilənməyə görə, rəsmi olaraq Azərbaycan vətəndaşları da Ermənistana vizasız səfər edə bilərlər.*

# Hər kəs mesajını aldı

## Fransa, Rusiya, hətta digər dövlətlər də



## "Azərbaycanın izni olmadan heç bir əcnəbi Qarabağa gedə bilməz"

Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə bildirib ki, torpaqlarımızda qanunsuz biznes fəaliyyəti göstərən şirkətlər məsuliyyətə cəlb olunacaq:

"Onlar bunu bilsinlər və gözləsinlər bu günü. Oraya müxtəlif ölkələrin parlamentlərinin nümayəndələri gedirdilər, indi görüm necə gedirlər. Fransadan bir heyət getmişdi, parlament üzvləri. Əfsuslar olsun ki, sülhməramlı qüvvələr onlara bu icazəni vermişdilər. Halbuki, biz bu sülhməramlı qüvvələr qarşısında məsələ qoymuşduq ki, bizim icazəmiz olmadan heç bir xarici vətəndaş Dağlıq Qarabağa gedə bilməz. Nəticədə Fransa səfiri bizim Xarici İşlər Nazirliyinə çağırıldı, nota verildi. Biz səssiz qalmayacağıq".

**Millət vəkili Tahir Kərimli prezidentin bu fikirləri barədə "Şərq"ə danışarkən sözügedən ismarıcın əhəmiyyətini yüksək qiymətləndirdi:** "Bəziləri elə düşünürdü ki, dövlət belə addımlara göz yumur. Amma dövlət başçısı səsləndirdiyi fikirlərlə məsələyə ən yüksək səviyyədə diqqət göstərildiyini bildirdi. Biz bu məsələyə laqeyd yanaşmayacağımızı bəyan etdik. Əslində Azərbaycan XİN-i lazımi xəbərdarlığı etmişdi. İndi isə dövlət başçısı səviyyəsində məsələyə toxunuldu. Bu, təkcə Fransaya, həm də digər ölkələrə, o cümlədən Rusiyaya mesaj idi: hər kəs beynəlxalq hüquqa və Azərbaycanın suverenliyinə hörmət etməli və bəyanatın şərtlərini tanımalıdır. Bizdən icazəsiz torpaqlarımıza səfər isə yolverilməzdir".

**Kənan**

# Qarabağda fərqli mənzərə görünür

## Rus sülhməramlıları narazılığı get-gedə artırırlar

Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə Rusiya sülhməramlı qüvvələrinin Qarabağdakı fəaliyyətindən də danışıb. Dövlət başçısı bildirib ki, sülhməramlı qüvvələrin funksiyası və səlahiyyətləri noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda əksini tapıb:



"İndi onlar orada humanitar işlərlə məşğuldurlar, halbuki, Bəyanatda bu funksiya təsdiq olunmayıb. Biz buna göz yumuruq. Nə üçün? Çünki başa düşürük ki, orada insanlar yaşayır, qış gəlib, hava soyuqdur. Müəyyən işlər görülməlidir ki, orada yaşayan ermənilər üçün problem yaratmasın. Ona görə imkan veririk. Yüklərin böyük hissəsi oraya Azərbaycan ərazisindən gedir. Əlbəttə, biz imkan verməyə də bilərdik". Ölkə rəhbəri sülhməramlılarla bağlı iradını bu ifadələrlə dilə gətirib: "Fransadan bir parlament heyəti Dağlıq Qarabağa getdi. Əfsuslar olsun ki, sülhməramlı qüvvələr onlara bu icazəni verdilər. Halbuki, sülhməramlı qüvvələr qarşısında məsələ qoymuşduq ki, bizim icazəmiz olmadan heç bir xarici vətəndaş Dağlıq Qarabağa gedə bilməz".

**Təxribatlara göz yuman və bəzən şərait yaradan Rusiya sülhməramlıları ilə bağlı narazılığı "Şərq"ə dəyərləndirən AĞ Partiya sədri Tural Abbaslı deyib ki, bu qüvvələrin fəaliyyəti dövlət başçısından tutmuş sıravi vətəndaşa qədər bütün Azərbaycan ictimaiyyətini narahat edir.** Partiya rəhbərinin sözlərinə görə, narazılıq doğuran məqam odur ki, Rusiya sülhməramlıları qanuni missiyanı yerinə yetirmirlər: "Onların əsas işi erməni silahlılarının Qarabağdan tamamilə çıxarılmasını təmin etmək idi. Amma fərqli mənzərəni müşahidə edirik. Hələ də erməni terrorçuları bölgədə qalır və zaman-zaman Azərbaycan əsgərlərinə qarşı təxribata əl atırlar. Belə çıxır ki, rus sülhməramlıları bu təhdidin qalmasında maraqlıdır. Prezident vurğuladı ki, sülhməramlılara sadəcə zəruri hallarda humanitar işlərlə məşğul olmaq icazəsi verilib. Ölkə başçısının da bəyan etdiyi kimi bu məqam 10 noyabr Bəyannaməsində əks olunmayıb. Dövlət başçısının çıxışı Rusiyaya xəbərdarlıqdır ki, sülhməramlılar öz işləri ilə məşğul olsunlar. Rus sülhməramlıları bu çıxışdan nəticə çıxartmalı və torpaqlarımızda daimi qalacaqlarını düşünməməlidir. Məhz onların yarıtmaz və qanunsuz fəaliyyəti sülhməramlılara olan narazılığı get-gedə artırır. Bu məsələdə iqtidarla müxalifət eyni mövqedən çıxış edirlər".

**Onların əsas missiyası erməni silahlılarının Qarabağdan tamamilə çıxarılmasını təmin etmək idi...**

**İsmayıl Qocayev**

# "Cənab Prezident, biz hər zaman sizinləyik"

## Vətəndaşlar yazır ki, Azərbaycanın milli maraqları onlar üçün ən vacib məsələdir

**Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları göndərməkdə davam edirlər. Onlar Vətən müharibəsində qazandığımız tarixi Qələbəni böyük sevinc və qürur hissləri ilə qarşıladıqlarını bildirir, dövlətimizin başçısına təşəkkür edirlər. Həmin məktubların bəzilərini təqdim edirik:**



**Türkiyə, Ankara şəhərindən Aygün Attar:** Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan. Qəhrəman Ordumuzla birlikdə bizə bəxş etdiyiniz Qarabağ zəfəri üçün Sizə təşəkkür edirəm. Sizin sayənizdə mənim Azərbaycandakı doğmalarım artıq məcburi köçkün deyillər. 30 illik problemi 44 gündə uğurla həll edərək yazdığınız tarixi uzun illər siyasi tarix sahəsində fəaliyyət göstərən elmi işçi kimi qiymətləndirir və iftixar hissləri keçirirəm. 2021-ci ilə Sizin rəhbərliyinizlə Azərbaycanın yeni və şərəfli tarixinin qızıl səhifələrinin yazıldığı günlərin sevinci ilə başladıq. Bu ilin ilk günlərində mədəniyyətimizin beşiyi olan Şuşa şəhərini Azərbaycanımızın mədəniyyət paytaxtı elan etdiyinizə və Qarabağın ən qısa zamanda Sizinlə çiçəklənəcəyinə inamımızı artırdığınıza görə hamımız xoşbəxtik. Cənab Prezident, biz hər zaman Sizinləyik. Əmin olun ki, Vətəndən uzaq olsaq da, Azərbaycanın milli maraqları bizim üçün ən vacib məsələdir. Sizinlə və uğurlu siyasətinizlə qürur duyuruq. Dünya azərbaycanlıları ətrafınızda tək yumruq kimi birləşən Azərbaycan xalqı ilə birlikdə Sizin arxanızdadır.

**Qırğız Respublikası, Bişkek şəhərindən Rizvan Abasov:** Hörmətli cənab Prezident. Dünya azərbaycanlılarının lideri olaraq Sizi Azərbaycanın zəfəri münasibətilə təbrik edir, Azərbaycana və bütün azərbaycanlılara birlik və firavanlıq, gələcək illərdə uğurlar və qələbələr arzulayıram. Qələbələrdən bəhs edərkən Azərbaycanın əzəli torpaqlarının qaytarılmasına, Qarabağın azad edilməsinə görə Sizə təşəkkür etmək istəyirəm. Qarabağ bizim də Vətənimizdir. Ailəmiz 1937-ci ildə bu gözəl diyardan repressiya olunmuş miqrantların nəslindəndir. Həmişə azərbaycanlı olduğumuza görə fəxr etmişik. İndi isə Sizin və igid döyüşçülərimiz sayəsində Vətənimiz və böyük xalqımızla daha çox fəxr etdik. Əminəm ki, Sizin kimi təcrübəli bir liderin rəhbərlik etdiyi Azərbaycan daha böyük qələbələrə imza atacaq. Qırğızıstanda yaşayan azərbaycanlı gənclərin adından Sizə təşəkkür edir, Sizə uzun illər uğurlu rəhbərlik fəaliyyəti, ölkənizə firavanlıq arzu edirəm.

**Moldova Respublikası, Kişinyov şəhərindən Elçin Bayramov:** Hörmətli cənab Prezident, 2020-ci ildə qazanılan və dünyadakı bütün azərbaycanlıların sevincinə səbəb olan zəfərlər münasibətilə Sizi təbrik edirəm. Moldova Azərbaycanlıları Konqresi adından xalqımıza zəfər gətirən və tarixi ədaləti bərpa edən, Qarabağı erməni işğalından azad edən hərbi əməliyyatlar zamanı göstərdiyiniz qətiyyət, əzm və cəsarətdən iftixar hissi keçirdiyimi bildirirəm. Əminəm ki, yeni 2021-ci ilin növbəti 365 günü Vətənimizin çiçəklənməsi və əldə olunan nəticələrin möhkəmləndirilməsi istiqamətində daha məhsuldar olacaq. Bununla yanaşı, dünyanın müxtəlif ölkələrində Azərbaycan diasporunun dəstəklənməsi və inkişafına yönəlmiş fəaliyyətlərin qiymətləndirilməsinin simvolu olan "Diaspora fəaliyyətindəki xidmətlərinə görə" medalını təsis etdiyiniz üçün Sizə təşəkkürümü bildirirəm.

**Masallı rayonundan Nazənin Əzimova:** Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, Sizi ailəmiz adından zəfər münasibətilə təbrik edir, cansağlığı və səadət arzulayıram. Sizin kimi Prezidentlə fəxr edir, qürur duyuruq. Üzümüzə gələn bütün illərin firavan və uğurlu olmasını arzulayırıq. Allah Sizi var eləsin. Siz xalqımızın Milli Qəhrəmanısınız. Üzünüz həmişə gülsün. Hər zaman Allah amanında olasınız. Ulu Öndərimiz həmişə Sizinlə qürur duyub, əgər bu günləri görsə idi bu hisslərin həddi-hüdudu olmazdı. Şəhidlərimizə Allahdan rəhmət, onların valideynlərinə səbr, qazilərimizə şəfa diləyirik. Şükürlər olsun ki, biz Sizin sayənizdə Qarabağın azadlığının sevincini yaşayırıq.

**Aynurə Pənahqızı**



# İlqar Mirzəyevin oğlu "YAŞAT" Fondunda məsul vəzifəyə təyin olunub

**Azərbaycanın Milli Qəhrəmanı İlqar Mirzəyevin oğlu "YAŞAT" Fondunda məsul vəzifəyə təyin olunub.**

Trend-in məlumatına görə, bunu Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev deyib.

Onun sözlərinə görə, fondun 7 rəhbər işçisi təyin olunub: "Onlardan 3 nəfər Qarabağ qazisidir".

# Kamran Əliyev: "Ötən il 30 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib"



**Hesabat dövründə xidməti fəaliyyətində yol verdikləri nöqsanlara görə 30 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib.**

APA-nın məlumatına görə, bunu, Baş Prokuror Kamran Əliyev dünən keçirdiyi əməliyyat müşavirəsində deyib.

O qeyd edib ki, hesabat dövründə xidməti fəaliyyətində yol verdikləri nöqsanlara görə 30 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib, onlardan 2-si prokurorluq orqanlarından xaric edilib, 8 nəfər vəzifədən azad edilib, 15 nəfərə töhmət və ya şiddətli töhmət, 5 nəfərə isə digər intizam tənbehi tədbiri tətbiq edilib.

# "Rüstəm Muradov başqası ilə əvəzlənə bilər"

## Yanvarın 11-də baş tutacaq görüş Azərbaycan tərəfinin diktəsi ilə keçəcək

*44 günlük müharibənin nəticəsində əldə etdiyimiz qələbə müasir Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Bunu nəinki biz, bütün dünya gördü. Fəqət hələ də cavabsız suallar var. Bunlardan ən başlıcası isə Xocavənd, Xocalı və Əsgəranın taleyidir. Axı oralarda da bizim babalarımız, atalarımız yaşayıblar.*

İkinci bir tərəfdən isə əgər heç bir qan qohumluqları yoxdursa, niyə rus sülhməramlıları erməni separatçılarını bu qədər dəstəkləyir, onların hər "şıltaqlıqlarına" göz yumurlar, az qala, "nazları ilə oynayırlar"?! Bəs, bundan sonra hadisələrin inkişafı nələri vəd edir? Yanvarın 11-də Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya rəhbəri Vladimir Putin və Ermənistan Baş naziri Nikol Paşinyan arasında keçirilməsi ehtimal olunan görüşdən sonra, yəqin, bu sualların çoxuna aydınlıq gələcək.

**"Şərq" vəziyyəti proqnozlaşdırmaq və mövcud vəziyyəti dəyərləndirmək üçün hərbi ekspert Ədalət Verdiyevlə söhbətləşib.** O, Azərbaycanın haqlı davasında sonadək mübarizə aparacağını bildirib: "Prezident, Ali Baş Komandan İlham Əliyevin də müşavirədə dediyi kimi, Xocavənd, Xocalı, Əsgəran Azərbaycan ərazisidir. Oraya ermənilərin yerləşməsi ölkə başçısının razılığı və rus sülhməramlılarının müşayiəti ilə həyata keçirilir. Müəyyən müddət sonra həmin ərazilər də tamamilə bizim nəzarətimizə keçəcək və bərpa işlərinə başlanılacaq. Zəngəzur təzminat olaraq qaytarıla bilər. Nəzərə almaq lazımdır ki, ermənilər otuz il ərzində bizə külli miqdarda ziyan vurublar. Amma bu, yaxın günlərin işi deyil. Əvvəlcə, zəruri araşdırmalara ehtiyac var. Azərbaycan hərbçisinə müqavimət göstərən istənilən əli silahlı terrorçudur və o, dərhal zərərsizləşdirilməlidir. Başqa cür ola bilməz. Anti-terror əməliyyatları isə hər an aktualdır. Bu, daha çox terrorçulardan və onları idarə edənlərdən asılıdır".



"Ümid edirəm ki, biz rus sülhməramlılarının komandiri ilə terrorçuların səmimi fotolarına daha rast gəlməyəcəyik"

**Hərbi ekspert, həmçinin bir neçə gün sonra baş tutacaq görüş barədə də fikirlərini bildirib:** "Məncə, budəfəki görüş daha konstruktiv keçəcək. Qazaxın işğal altındakı kəndlərinin qaytarılması, sülhməramlıların özbaşınalığı, Naxçıvan dəhlizi, həmçinin əsirlərlə bağlı müəyyən məqamlar müzakirə ediləcək. Hər halda qarşı tərəf "Dəmir yumruq" zərbəsindən sonra özünü daha konstruktiv aparmağa meyilli kimi görünür. Ayrı-ayrı faktları çıxmaq şərtilə Azərbaycanın artan təzyiqləri qarşısında Ermənistan davranışı qismən məqbul hesab edilə bilər.

Fikrimcə, görüş bizim diktəmizlə keçəcək və nəticə maraqlarımıza uyğun olacaq. Əlbəttə, rus sülhməramlılarının separatçıları dəstəkləməsi dövlət başçısının diqqətindən kənarda deyil.

Bu məsələ Azərbaycan qanunvericiliyi ilə hüquqi məsuliyyət yaradır. Yəqin, yanvarın 11-də baş tutacaq görüşdə bu cür halların qarşısının alınması barədə də müzakirələr gedəcək. Ümid edirəm ki, biz rus sülhməramlılarının komandiri Rüstəm Muradovla terrorçuların səmimi fotolarına daha rast gəlməyəcəyik.

Sühməramlılarla birbaşa mübarizə bizim üçün məqbul sayılmır. Çünki onsuz da konkret şərtlərlə imzalanan bəyanat ortadadır. Rusiyada Rüstəm Muradov kimi generallar kifayət qədərdir. İstənilən an o, başqası ilə əvəzlənə bilər".

**Kənan Novruzov**

# Qarşıdurma güclü dövləti sarsıdıb

## ABŞ-da gözə görünməyən qüvvələrin mübarizəsi gedir







### Səhnə arxasındakı əsas gücün məqsədi nəyin bahasına olur-olsun Trampın növbəti dəfə seçilməsinə imkan verməməkdir

Yanvarın 7-də ABŞ-ın hazırkı Prezidenti Donald Trampın tərəfdarları ilə polis əməkdaşları arasında baş verən toqquşmalar səngisə də, proseslərin yenidən gərginləşəcəyi ehtimal edilir. Amerika hüquqşünasları və müxalifət qarşıdurmaya görə birbaşa məsuliyyəti Trampın üzərinə atırlar.

*Vaşinqtonun federal prokuroru vəzifəsini icra edən Mayk Şervin deyib ki, Trampın Vaşinqton Kapitolidəki iğtişaşlara görə mühakimə olunacağı istisna edilmir:* "Bütün subyektlərin əməllərini araşdırırıq. Bu işdə iştirak etdiyi sübuta yetiriləcək hər kəs qanun qarşısında məsuliyyətə cəlb olunacaq". Yeni prezident Co Bayden də məhz Trampın Vaşinqtondakı iğtişaşlara səbəb olduğu qənaətindədir: "Onları etiraz aksiyasının iştirakçıları adlandırmağa cürət etməyin. Bu iğtişaş, etiraz aksiyası deyildi, xaos idi. Üsyançı kütlə, qiyamçılar, daxili terrorçulardan ibarət bir izdiham idi. Bu, Prezident Trampın demokratiyaya amansız hücumunun nəticəsidir". Demokrat bildirib ki, "prezident qanundan ali ola bilməz".

**"Diqqətimi hakimiyyətin Baydenə ötürülməsinə yönəldəcəyəm"**

Donald Tramp Vaşinqtondakı iğtişaşları pisləyən videomüraciət paylaşıb. O, diqqətini yaxın gələcəkdə hakimiyyətin Co Baydenə ötürülməsi prosesinə yönəldəcəyini bildirib. Qeyd edək ki, Vaşinqtonda baş verən iğtişaşlardan sonra ABŞ-ın hazırkı prezidenti 12 saat müddətinə "Twitter"də yazmaq imkanından məhrum edilib. O, həmçinin səlahiyyət müddətinin sonunacan feysbuk və instaqramda da paylaşım edə bilməyəcək. "Twitch" xidməti və "Snapchat" sosial şəbəkəsi də Trampın akkauntlarını bloklayıb. Amerika Birləşmiş Ştatlarının Milli Təhlükəsizlik Şurasının dörd yüksək vəzifəli əməkdaşı da Vaşinqtonda baş verən qarşıdurmalar, o cümlədən Trampın davranışları səbəbindən istefa veriblər.

**"ABŞ-dakı bu olay hamını şoka saldı..."**

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Vaşinqtondakı olaylara münasibət bildirib. Ərdoğan deyib ki, ABŞ öz tarixində görünməmiş hadisə ilə qarşı-qarşıya qalıb:** "Sözdə demokratiyanın beşiyi kimi tanınan Amerikadakı bu proses həqiqətən bütün insanlığı şoka salıb. Növbəti dövrdə ölkə Baydenlə sabitliyə qovuşacaq. Epidemiya dövründə həssaslıqla bu proses davam etməlidir. Beynəlxalq münasibətlərdə Ağ Ev də iştirak etməlidir".

**"Ümid edirəm, dərs olacaq..."**

**İran rəhbəri Həsən Ruhani Trampın prezidentliyi dövründə ölkənin bəlaya düşdüyünü deyib:** "Bir populist gəldi və dörd il ərzində öz ölkəsini bəlaya saldı. Sağlam olmayan adam hökumətə gələndə öz ölkəsi və dünya üçün problemlər yaradır". Ruhani həmçinin baş verənlərin dərs olacağına ümid etdiyini də bildirib.

**"ABŞ olayları bizdə təkrarlana bilər"**

**Braziliya Prezidenti Jair Bolsonaru isə bəyan edib ki, seçkilərdə səslərin sayılmasına qarşı inamsızlıq Konqresə izdihamlı hücuma səbəb olub.** O, eyni şeyin ölkəsində də baş verə biləcəyi ilə bağlı xəbərdarlıq edib. Bolsonaru namizədliyini irəli sürməyi planlaşdırdığı 2022-ci il prezident seçkilərində çap bülletenlərinin bərpa edilməsinin tərəfdarı olduğunu deyib: "Braziliyada elektron səsvermə varsa, eyni hal yaşanacaq. Bu işdə bir dələduzluq var. Səsvermənin nəticələrini yoxlamaq üçün 2022-ci ildə bülleten çap etdirməsək, ABŞ-dan daha böyük problemlərimiz olacaq".

**"ABŞ daxilində müəyyən güclərin səhnəarxası mübarizəsi gedir"**

**Bakı Politoloqlar Klubunun rəhbəri, siyasi elmlər namizədi Zaur Məmmədov vurğulayıb ki, ABŞ tarixində ilk dəfə baş verən hadisələri birmənalı olaraq Trampın adı ilə bağlamaq olar.** Ekspertin fikrincə, prezidentin tərəfdarlarının dinc mitinqdən radikal aksiyaya keçməsi seçki sistemində ciddi islahata ehtiyac olduğunu göstərir: "Amerikada seçkilər digər ölkələrdən fərqlidir. Orada prezident seçki komissiyası tərəfindən seçilir ki, bu da artıq köhnə üsuldur. Digər tərəfdən ABŞ daxilində müəyyən güclərin səhnəarxası mübarizəsi gedir. Qlobalistlər və anti-qlobalistlər, eləcə də digər qruplar ölkə siyasətinə kifayət qədər ciddi təsir etmək imkanına malikdirlər və görünməyən qüvvələrdir. Onların bəzisi Trampı, bəzisi isə Co Baydeni dəstəkləyirdilər. Əslində səhnə arxasındakı əsas gücün məqsədi nəyin bahasına olur-olsun Trampın növbəti dəfə seçilməsinə imkan verməməkdir. Onlar ilkin mərhələdə Baydenin qalib gəlməsini, sonra isə onun yardımçısını, ilk qaradərili qadın vitse-prezident Kamala Harrisi hakimiyyətə gətirmək istəyirlər. Kamala Harrislə bağlı onların planları çoxdur, çünki bu qadın onların arzularının icraçısı qismində çıxış edəcək. Hər halda Azərbaycan üçün Amerikada sabitliyin olması çox vacibdir. Çünki güclü ABŞ Cənubi Qafqazda müəyyən qüvvələr arasında tarazlıq deməkdir ki, bu da Qarabağın gələcək taleyi üçün çox vacibdir".

**İsmayıl Qocayev**

## Özbəkistan, Qazaxıstan və ABŞ hökumətləri Mərkəzi Asiya İnvestisiya Tərəfdaşlığı yaradır

**Özbəkistan, Qazaxıstan və ABŞ hökumətləri Mərkəzi Asiya İnvestisiya Tərəfdaşlığı yaradır.**

AZƏRTAC Özbəkistan mətbuatına istinadla xəbər verir ki, bu təşəbbüs çərçivəsində Özbəkistan İnvestisiya və Xarici Ticarət Nazirliyi, "Astana" Beynəlxalq Maliyyə Mərkəzi və Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Maliyyə Korporasiyası (DFC) tərəfindən regional özəl layihələrə 5 il ərzində 1 milyard dollar həcmində vəsait cəlb olunması nəzərdə tutulur.

Bildirilir ki, İnvestisiya Tərəfdaşlığı C5+1 (Mərkəzi Asiya ölkələri-ABŞ) platforması vasitəsilə həyata keçiriləcək layihələr ticarət və inkişaf, qarşılıqlı fəaliyyətin genişləndirilməsi və COVID-19-la əlaqədar iqtisadiyyata dəymiş ziyanın nəticələrinin aradan qaldırılmasını nəzərdə tutur. Beynəlxalq İnkişaf Maliyyə Korporasiyası regional layihələrdən başqa Özbəkistanın İnvestisiya və Xarici Ticarət Nazirliyi, "Astana" Beynəlxalq Maliyyə Mərkəzi ilə ikitərəfli memorandumların imzalanmasını da nəzərdə tutur.

## Qarabağ qazisi "YAŞAT" Fonduna rəhbər təyin edildi




**"Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fonduna ("YAŞAT" Fondu) rəhbər və müdir müavini seçilib. Fondun rəhbəri vəzifəsinə Vətən müharibəsi qazisi Elvin Hüseynov, müdir müavini vəzifəsinə isə Rəbiyyə Cəfərova seçilib.**

Qeyd edək ki, Prezident İlham Əliyev dekabrın 8-də "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında" Fərman imzalayıb.

## Müdafiə Nazirliyi təkzib etdi

### Azərbaycanın 3 şəhərində Türkiyə hərbi bazalarının qurulacağı barədə xəbərlər həqiqəti əks etdirmir



**Bir sıra xarici media orqanlarında ölkəmizin üç şəhərində Türkiyənin aviasiya hərbi bazalarının qurulacağı barədə xəbərlər yayılıb.**

"Şərq" xəbər verir ki, Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı yayılan bu məlumatların həqiqəti əks etdirmədiyini bildirib.

Vaqif Dərgahlı qeyd edib ki, Azərbaycan Respublikası tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, öz ərazisində xarici hərbi bazaların yerləşdirilməsi siyasətindən kənardır.

Nəzərə almaq lazımdır ki, Azərbaycan Qoşulmama Hərəkatının üzvüdür və 2019-2022-ci illər üçün bu hərəkatın sədridir.

# Türkiyə Aralıq dənizindəki haqq işindən çəkinməyəcək

## Türk professor Yunanıstanın bütün cəhdlərinin mənasız olduğunu bildirib

**Yunan mediası Səudiyyə Ərəbistanı şahzadəsi Məhəmməd bin Salmanın əmri ilə çox sayda "F-15" qırıcısının Krit adasındakı Suda hərbi bazasına enəcəyini yazıb. Bu addımın Türkiyəyə gözdağı vermək üçün atılacağı bildirilib.**

Ötən il Aralıq dənizinin şərqində küncə sıxılan Yunanıstan və Cənubi Kipr müttəfiqləri ilə birlikdə Türkiyəyə qarşı həmlələrini davam etdirir. Bu məqsədlə Yunanıstana dəstək olmaq üçün Sudaya əvvəlcə Fransanın "Rafale" tipli döyüş qırıcıları enib. Bundan sonra Liviya və Suriyada Türkiyəyə rəqib olan Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) adaya doqquz savaş təyyarəsi göndərib. BƏƏ-yə məxsus "F-16"lar Yunanıstan hərbi hava qüvvələri ilə birlikdə təlimlərdə iştirak edib.

Türkiyə ilə silahlanma yarışına girən Yunanıstan hökuməti 2020-ci ilin sonunda Fransa ilə 18 "Rafale" qırıcısının satın alınması üçün müqavilə imzalayıb, ABŞ-dan "F-35" döyüş təyyarələri istəyib. Eyni zamanda, İsraildən pilotsuz uçan aparatlar (PUA) almağa hazırlaşır.

Yunanıstan qardaş ölkəyə qarşı Aralıq dənizində yeni cəbhə yaratmaq üçün əlindən gələni edir. Lakin bu cəhdlərin boşa çıxacağına şübhə yoxdur. Çünki bütün dünya ölkələri Türkiyənin hərbi qüdrəti barədə yetərli bilgiyə sahibdirlər. Ona görə də gün keçdikcə güclənən, iqtisadi və hərbi gücü artan Türkiyə ərəb və qərb ölkələrində əndişə yaradır.



**"Hava və dəniz sahələrimizdə bir pozuntu olarsa, bu ölkələr lazımi cavablarını alacaqlar"**

**Mövzu ilə bağlı "Şərq"ə danışan Marmara Universitetinin doktoru, professor Sərdar Oğuzxan Çayçıoğlu qeyd edib ki, son aylar Şərqi Aralıq dənizində Türkiyə ilə Yunanıstan arasında yaşanan təbii qaz böhranı iki ölkə arasındakı vəziyyəti daha da gərginləşdirib:** "Bundan sonra Yunanıstan İsrail ilə hərbi sahədə əməkdaşlığını genişləndirməyə qərar verdi. İsrailin "Elbit Systems"adlı müdafiə şirkətinin Yunanıstanla birlikdə İsrail hava qüvvələri üçün uçuş məktəbinin yaradılması barədə planları olduğu açıqlandı. Bu açıqlamanı İsrail Müdafiə Nazirliyi verdi. Həmçinin Yunanıstanın İsraildən 10 M-346 tipli təlim təyyarəsi alacağı da bildirildi".

**S.O.Çayçıoğlunun sözlərinə görə, Yunanıstan Türkiyə ilə yaşadığı anlaşılmazlıqdan sonra müdafiə sahəsindəki büdcəsini 5 dəfə artırdı:** "Fransa ilə yeni bir hərbi müqavilə imzalayan Afina, 18 Fransız döyüş təyyarəsi, dörd yeni frekat, döyüş sursatı və müxtəlif hərbi texnika satın almağı planladığını bildirdi. Yunanıstan Türkiyəyə qarşı təxribatlarını gücləndirmək üçün Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Misir, Fransa, ABŞ-a və Səudiyyə Ərəbistan ölkələrinə güvənir. Yunanıstan və Cənubi Kipr, keçən ilin yaz aylarında müttəfiqləri ilə birlikdə Türkiyəyə qarşı Aralıq dənizində bir neçə dəfə təlim keçirməyə başladı.

Artıq Səudiyyə Ərəbistanı vəliəhdi Məhəmməd bin Salmana məxsus döyüş təyyarələrinin Türkiyəni qorxutmaq üçün Krit adasındakı Suda hərbi bazasına enəcəyi açıqlanıb. Türkiyə Aralıq dənizində öz qanuni hüquqlarını müdafiə edir.

Heç bir ölkənin sərhədində pozuntulara yol vermir. Amma bu ölkələr Türkiyənin Aralıq dənizindəki zəngin qaynaqlara sahib olmasından və təbii ki, dövlətin iqtisadi baxımdan güclənməsindən çəkinirlər. Bundan əlavə, bəzi ərəb və qərb ölkələri Türkiyənin bölgədə supergüc dövlət olmasından narahatdırlar. Bu səbəbdən birlikdə hərəkət edərək rəsmi Ankaranı cilovlamaq istəyirlər".

**Professor vurğulayıb ki, istənilən ölkə qarşılıqlı razılaşma əsasında birgə təlimlər keçirə bilər:** "Türkiyə bu cür gözdağılarından çəkinməyəcək. Ancaq hava və dəniz sahələrimizdə bir pozuntu olarsa, bu ölkələr lazımi cavablarını alacaqlar. Prezident Rəcəb Tayyib Ərdoğan və Milli müdafiə naziri Hulusi Akar bununla bağlı lazımi açıqlamanı veriblər.

Türkiyə hüquqlarını müdafiə etmək üçün beynəlxalq dəniz qanunlarına uyğun şəkildə işlər görür. Ölkəmiz hər zaman Aralıq dənizində doğru addımları atmağa davam edəcək".

**Yeganə Bayramova**

## Uşaqlarımızı Qarabağa aparmayın!

### Ermənistanda əsgər anaları ayağa qalxdı

**"Mənə ötən gün dedilər ki, Rusiya və Azərbaycan bizim əsgərlərimizi Qarabağda xidmət aparmağa qoymurlar. Biz dedik, yaxşı, qoy əsgərlər Ermənistanda xidmət etsinlər. İndi isə deyirlər, yox onlar yenidən Qarabağa getməlidirlər".**



Ermənistanda müddətli hərbi xidmət keçən əsgərlərin valideynləri Yerevanda V.Sarkisyan adına Hərbi İnstitutun qarşısında etiraz aksiyası keçirirlər. Sputnik Ermənistan xəbər verir ki, onlar bir həftəlik məzuniyyətə gələn övladlarının Ermənistanda saxlanılmasını və Qarabağa göndərilməməsini tələb edirlər.

"Mənə ötən gün dedilər ki, Rusiya və Azərbaycan bizim əsgərlərimizi Qarabağda xidmət aparmağa qoymurlar. Biz dedik yaxşı, qoy püşk atsınlar və əsgərlər Ermənistanda xidmət etsinlər. İndi isə deyirlər, yox onlar yenidən Qarabağa getməlidirlər. Uşaqlardan heç kim bunu istəmir və biz buna imkan verməyəcəyik", - deyə aksiya iştirakçılarından biri, əsgər anası jurnalistlərə bildirib.

## Qarabağda cəsədləri tapılan erməni hərbçilərin sayı artdı

**Qarabağda daha altı erməni hərbçinin cəsədi tapılıb. Bu barədə Sputnik Ermənistan xəbər verir.** Məlumatda qeyd olunur ki, 6 erməni hərbçinin cəsədi Hadrut tərəfdə tapılıb. Həmçinin qeyd olunur ki, dünən axtarış işləri Əsgəran, Hadrut və Cəbrayıl istiqamətində aparılacaq. Qeyd edək ki, yanvarın 8-nə olan məlumata görə, Ermənistan tərəfi 1194 hərbçinin cəsədini və ya cəsəd qalıqlarını tapıb. Ümumilikdə isə Ermənistan Səhiyyə Nazirliyi sentyabrın 27-dən noyabrın 9-dək erməni tərəfinin 3330 nəfər itki verdiyini açıqlayıb.

# Bizimki bir "aşk" hekayəsi

**Bir deyim var: "Hər sağlam insan əlilliyə namizəddir". Bəlkə də, fiziki qüsurlu deyilik; Qüsurlu olmağın hansı dezavantajlarının ola biləcəyini yaşamamışıq, ancaq bununla yaxın və ya uzaq mühitdə rastlaşırıq. Belə gəncləri cəmiyyətə qazandırmaq insanların öz əllərindədir.**

**Edison Quliyev:**
"Belə qəhrəmanlarla ailə həyatı quran xanımlar vətənpərvərdirlər"

**Lalə Mehralı:**
"O xanımın qazi Abbası xoşbəxt edəcəyinə inanıram"





Vətən müharibəsində minaya düşərək sol ayağını topuq nahiyəsindən yuxarı itirən qazimiz Yusifov Abbas yenicə ailə həyatı qurub. Onların hekayəsi həm rənglidir, həm də ibrətamiz. Sosial şəbəkələrdə bu cütlüyün fotolarına xoş sözlər, arzular ünvanlanıb. Tənqidçi İradə Musayeva gənclərin fotosunu paylaşaraq "Bu şəkildə iki qəhrəman görürəm. Allah xoşbəxt eləsin" statusunu qeyd edib. Müharibə dövründə qazilərimizlə bərabər xanımlarımız da, böyük şücayət nümayiş etdiriblər. Doğrudan da, 44 günülük Vətən müharibəsindən sonra ölkəmizdə təfəkkür yenilənir, insanlar dəyişir, cəmiyyət yenidən konfiqurasiya olunur.

**Psixologiya üzrə dosent, elmlər namizədi Edison Quliyev "Şərq"ə bildirib ki, fiziki qüsurlu olan şəxslər çox ləyaqətli insanlardır və onların daxili dünyaları olduqca zəngin olur. Onun sözlərinə görə, belə qəhrəmanlarla insanlarla ailə həyatı quran xanımlar vətənpərvərdirlər:**

"Fiziki qüsurlu olan şəxslərə qarşı çox böyük mərhəmət hissi ilə yanaşılmalıdır. Adil İsgəndərin bir sözü var: "Elə insanlar var ki, qüsurludur, hətta müəyyən əqli geriliyə malikdirlər. Lakin onların çox zəngin ürəkləri var".

Qüsur taleyin işidir, buna başqa cür yanaşmaq doğru deyil. Xalqın mədəni səviyyəsini əks etdirən amillərdən biri də budur ki, fiziki qüsurlu şəxslərə məhəbbət, qayğı hissi ilə yanaşılır. Fiziki qüsurlu insanlar sosiallaşır və xüsusilə, "Vətən müharibəsi"ndə iştirak edənlər cəmiyyətə xeyir veriblər. İctimaiyyətdə belə bir fikir formalaşmalıdır ki, fiziki qüsurlu şəxslər cəmiyyətin aktiv nümayəndələridir.

Vətən müharibəsi qəhrəmanları Azərbaycan xalqının arzularını reallaşdırıblar. Bundan sonra belə hallar çox olacaq, bizim xanımlarımız qazilər ilə xoşbəxt həyat yaşayacaqlar".

**Sosioloq Lalə Mehralı isə açıqlamasında vurğulayıb ki, insanlar artıq xırda detallara fikir vermir:**

"Fiziki məhdudiyyəti olan şəxslərin həmçinin qazilərin işləmə qabiliyyəti varsa, bu məsələ niyə problem olmalıdır ki?! Əmək qabiliyyəti olan fiziki qüsurlu şəxslər ailə həyatı qurmaqda heç bir problem yaşamır. Qazi Abbasın nişanlısı ilə evlənməsi də buna görə təəccüblü qarşılanmadı. Qızın bu cür addım atmağı , məncə, gözlənilən idi.

Bu normaldır və milli düşüncədən irəli gəlir. O xanımın qazi Abbası xoşbəxt edəcəyinə inanıram.

Cəmiyyətdə fiziki qüsurlu şəxslərə xor baxılarsa, onlar özünə qapanar və evliliyə meylli olmazlar.

Görünür ki, onun sağlamlığında məhdudiyyət olmasını insanlar xor görmür. Vətən uğrunda sağlamlığını itirmiş insana borclu olduğunu hər addımda minnətdar olduğunu başa salırlar".

**Aygün Tahirqızı**

# Qarabağa dönəcəklər

## Jurnalistlər yurdlarına qayıdıb ata ocağının çırağını yandırmaq istəyir

**Aydın Bağırov: “Ağdama sevinərək, özü də ilk qayıdanlardan biri mən olacam və o günü səbirsizliklə gözləyirəm”**







**Seymur Verdizadə: “Məcburi köçkünlər doğma torpaqlara köçürüləndə, karvanın önündə mən və əzizlərim də olacaq”**

**Ermənistanın işğalçılıq siyasəti nəticəsində 30 ilə yaxın idi ki, 1 milyona yaxın insanımız doğma yurdlarından didərgin düşmüşdü. Qaçqın və məcbur köçkün statusunu daşımağa məhkum edilmişdilər. Əlbəttə, indiyədək dövlətimiz tərəfindən məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün çoxsaylı addımlar atılıb.**

100-dən çox müasir tipli qəsəbə salınıb, məcburi köçkünlər aylıq müavinətlər və xüsusi imtiyazlarla təmin edilib. Demək olar ki, maddi təminatlarında ciddi problemlə üzləşməyiblər. Amma bütün bunlara baxmayaraq, həmin insanlar daim Vətən həsrəti ilə yaşayıblar. Dünyaya göz açdıqları torpaqlara geri dönəcəkləri günü səbirsizliklə, ürək yanğısıyla gözləyiblər. Şükürlər olsun ki, o tarixi gün yetişdi və şanlı Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində torpaqlarımız düşməndən təmizləndi. Artıq Böyük Qayıdışa, Vətən həsrəti ilə yaşayan insanlarımızın öz yurdlarına geri dönüşünə hazırlıq başlayıb. Vəhşi ermənilərin viran qoyduğu diyarlarımızda bütün zəruri infrastruktur yenidən qurulandan sonra qarabağlılar mərhələli şəkildə öz evlərinə qayıdacaqlar. Qarabağa geri dönüş məsələsinə ötən gün Prezident İlham Əliyev də diqqət çəkib. 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıtmasının vacibliyini vurğulayan dövlət başçısı bildirib ki, köçkünlər arasında sorğular keçirilməli və onların niyyəti öyrənilməlidir: ”Evlərlə təmin olunmuş köçkünlər, həm də bu günə qədər yataqxanalarda, uşaq bağçalarında ağır vəziyyətdə yaşayan köçkünlər arasında sorğular keçirilməlidir ki, biz real vəziyyəti biləк. Özümüz-özümüzü aldatmamalıyıq, real vəziyyəti bilməliyik. Xahiş edirəm köçkünlərdən, onlara sual veriləndə səmimi cavab versinlər ki, öz dədə-baba torpaqlarına getmək fikirləri var, yoxsa yox. Bizə bildirsinlər, biz də biləк və buna görə öz bərpa işlərimizi həyata keçirməliyik”. Ölkə başçısı keçmiş köçkünlərin mütləq əksəriyyətinin böyük həvəslə doğma torpaqlarına qayıdacağından tam əmin olduğunu söyləyib: ”İndi torpaqlar azad olunub. Ona görə, keçmiş köçkünləri Bakıda, Gəncədə, Sumqayıtda yerləşdirmək heç bir məntiqə sığmır”.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov isə bildirib ki, işğaldan azad edilmiş torpaqlara getmək istəməyənlər ”məcburi köçkün” statusunu itirəcək. Bunun nəticəsi olaraq, məcburi köçkünlərə və onlara bərabər tutulan şəxslərə şamil olunan imtiyazlar qüvvədən düşəcək. F.Hüseynov bildirib ki, Azərbaycan dövləti tərəfindən işğaldan azad edilmiş torpaqlarda ən yüksək səviyyədə şərait yaradılacaq: ”Prezidentin çıxışına istinad edərək bildirmək istərdim ki, məcburi köçkünlərdən qayıtmaqla bağlı səmimi cavab verməsi xahiş olunur”.

Bir məqamı da xatırladaq ki, Sosial Tədqiqatlar Mərkəzinin 2020-ci il oktyabrın 9-dan 13-dək olan dövrdə keçirdiyi ”Qarabağa qayıdış”-sorğusunun nəticəsinə görə, Qobu qəsəbəsində yaşayan köçkünlərin 98 faizi, gənclərin isə 96 faizi yaxın gələcəkdə azad edilmiş rayonlarına qayıtmağı planlayır.

**Ağdamlı Əməkdar jurnalist, ”Qol.az” saytının baş redaktoru Aydın Bağırov ”Şərq”ə açıqlamasında qarabağlıların böyük əksəriyyətinin geri qayıdacağına şübhə etmədiyini bildirib.** Baş redaktor köç icazəsi veriləndən və təhlükəsizlik təmin olunandan sonra rayona ilk gedənlər arasında olacağını deyib: ”Ağdam işğaldan azad edildikdən sonra şəxsən mənə neçə-neçə ağdamlı geri qayıtmağı səbirsizliklə gözlədiklərini, orada yeni ev tikəcəklərini, iş yeri açacaqlarını söyləyib. Eləcə də işğaldan azad edilən digər rayonlarımızın sakinləri. Özümlə bağlı deyə bilərəm ki, mənim Bakıda şəxsi mənzilim, yaxşı da işim var. Amma Ağdama sevinərək, özü də ilk qayıdanlardan biri mən olacam və o günü səbirsizliklə gözləyirəm. İşimi də doğma şəhərimdən idarə edəcəm. Burada heç bir problem yoxdur. Yəni, hansısa mülk, iş-güc doğma ana torpağından yüksəkdə dura bilməz. Nəzərə alın ki, yataqxanalarda, vaqonlarda yaşayan nə qədər keçmiş məcburi köçkün var. Əlbəttə, onlar baxımsız yerlərdə qalası deyil. Doğma, səfalı, gözəl təbiəti olan doğma torpaqlarında zaman-zaman özləri üçün şərait yaradıb yaşayacaqlar. İndi bizim üçün əsas məsələ ərazilərin minalardan təmizlənməsi və dövlət qurumlarının icazəsindən sonra geri qayıtmaqdır”.

**Cəbrayıllı jurnalist, ”yenisabah.az” saytının baş redaktoru, Jurnalist Araşdırmaları Mərkəzinin rəhbəri Seymur Verdizadə fikirlərini ”Şərq”ə bölüşərkən deyib ki, doğma yurda qayıtmaq, ata ocağının çırağını yandırmaq hər bir insanın borcudur:** ”Mənim kimi yüz minlərlə insan bu arzuyla yaşayır. Məcburi köçkünlər doğma torpaqlara köçürüləndə, karvanın önündə mən və əzizlərim də olacaq. Hər kəs buna əmin ola bilər. Biz 30 ilə yaxındır ki, Qarabağ həsrəti ilə yatıb-qalxırıq. Bu illər ərzində Qarabağı hər gecə yuxularımızda görmüşük. İndi yuxularımız çin olub. Qarabağ vətəndir və yaşamaq üçün bizə lazımdır. Qarabağda şəkil çəkdirməyə yox, yurd salmağa, əkib-becərməyə, o torpaqları cənnətə çevirməyə gedəcəyik”.

*S.Verdizadə prosesə ciddi hazırlaşmağın zəruri olduğunu vurğulayıb:* ”Dövlət dəqiq bilməlidir ki, nə qədər insan üçün ev tikib, yurd salmalıdır. Söhbət turist səfərindən deyil, birdəfəlik köçdən gedir. Azərbaycan rayonları sürətlə boşalır, bir çox ucqar kəndlərdə evlərin qapısına qıfıl vurulur. Sabah Qarabağda eyni hadisələr təkrarlanmamalıdır. İnsanların məşğulluq problemi həll olunmalıdır. Dövlət başçısının çıxışı da buna hesablanıb. Müzakirələrə başlamaq faydalıdır. Mən özümə və ailəmə cavabdehəm. Doğma yurda qayıdacağımız günü səbirsizliklə gözləyirik. Qohum-qardaşım, dost-tanışım da mənim kimi düşünür. Qarabağlıların böyük əksəriyyəti geri qayıtmaq üçün günləri sayırlar. Hər kəs buna əmin olsun”.

**İsmayıl Qocayev**

# Gələnlərimiz çox olacaq

## Qarabağda tikiləcək aeroportlar ölkəyə həm də siyasi dividend gətirəcək



**“Qarabağa xarici turistlərin, qonaqların gediş-gəlişinin rahat təşkili üçün kommunikasiyaların müasirləşdirilməsi ən vacib məsələdir”.**

*Bu sözləri ”Şərq”ə açıqlamasında millət vəkili, iqtisadçı-ekspert Azər Badamov deyib.* Deputat bildirib ki, Şuşaya avtomobil yolunun çəkiliş davam edir. Ötən gün isə Prezident İlham Əliyev Füzulidə, Laçın və ya Kəlbəcərdə beynəlxalq aeroportun tikiləcəyini və cari ildə istifadəyə veriləcəyini dedi: ”Füzuli, Laçın və ya Kəlbəcərdə tikiləcək beynəlxalq hava limanları xarici qonaqların, o cümlədən turistlərin ümumilikdə Qarabağa səfərlərini rahatlaşdıracaq. 30 il ərzində düşmən tapdağı altında qalan və tamamilə dağıdılan Qarabağ beynəlxalq ictimaiyyətin də diqqət və marağındadır. Biz ilk növbədə xarici qonaqları işğaldan azad olunmuş ərazilərimizə cəlb etməklə onları Azərbaycan mədəniyyəti və tarixi ilə yaxından tanış edəcəyik. Eyni zamanda erməni barbarlığını və vandalizmini dünya ictimaiyyətinə çatdıracağıq. Bu baxımdan Füzuli və digər rayonlarımızda tikiləcək aeroportların iqtisadi dividendlə yanaşı, böyük siyasi əhəmiyyətə malik olacağını düşünürəm”.

**İsmayıl**

# Hərbi geyimlərdən sui-istifadə halları var

“Tərxis olunan bütün zabit və əsgərlərin heç də hamısına hərbi formada gəzməyə icazə verilmir”

**Vətən müharibəsində iştirak etmək üçün səfərbərlik üzrə həqiqi hərbi xidmətə çağırılmış və artıq ehtiyata buraxılmış bəzi vətəndaşların hərbi geyim formasını daşıma hüququna malik olmadığı halda ölkə ərazisində hərbi geyim formasından istifadə etməsi halları müşahidə olunur.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, həmin şəxslərdən bəzilərinin hətta hərbi geyim formasından kobud şəkildə istifadə etdiyinin şahidi oluruq. Bu kimi hallar müvafiq qanunvericiliyə zidd olmaqla yanaşı müzəffər Azərbaycan Ordusunun imicinə də xələl gətirir:

”Qeyd edək ki, hərbi geyim formalarının daşınması ”Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qulluqçuların hərbi geyim forması və fərqləndirmə nişanları haqqında” Əsasnamənin və



”Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanlarının təsvirləri”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 25 iyun 2001-ci il tarixli Fərmanı ilə tənzimlənir”.

**Etiraf etmək lazımdır ki, mülki həyatda mundirdən sui-istifadə halları həqiqətən, zabit, əsgər adına hörmətsizlikdir. Ehtiyatda olan polkovnik Elxan Qəniyev də bu fikirdədir. O, ”Şərq”ə açıqlamasında belə məsələlərin Qanunla tənzimləndiyini deyib:** ”Tərxis olunan bütün zabit və əsgərlərin heç də hamısına hərbi formada gəzməyə icazə verilmir. Yalnız xidmətə görə fərqlənənlər belə səlahiyyət sahibidirlər. Əgər hər kəsə belə ixtiyar verilsə, onda nümunəvi hərbi qulluqçular necə fərqlənəcəklər? Nəzərinizə çatdırım ki, ”Hərbi xidmət haqqında” Əsasnamənin 156-cı maddəsinin ”b” bəndinə müvafiq olaraq əsgər və zabitlərə hərbi forma daşımaq hüququ verilir”.

**Kənan**



# Ermənilər Heydər Əliyevdən Kremlə şikayət etmişdilər ki...

## "...Qarabağ xanının vəziri Vaqifə heykəl qoyub"

**Ümummilli Lider Heydər Əliyevin bütün həyatını xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, Azərbaycanın ərazi bütövlüyünə zərrə qədər də xələl gəlməməsinə, dövlətimizin güclənməsinə sərf etdiyi şəksizdir. Görkəmli siyasi xadimin fəaliyyətində Azərbaycanın maraqları hər zaman üstün olub. Xüsusilə də bədxah niyyətlərindən, az qala bütün dünya ölkələrinə ərazi iddiaları irəli sürən erməni toplumu ilə qonşuluq kimi taleyin acı ironiyası ilə üz-üzə qaldığımızı nəzərə alsaq, Ulu Öndər bu tarixi gerçəkliyi özünün siyasi fəhmi ilə Azərbaycanın milli maraqları çərçivəsində əritməyə nail olurdu.**

Ulu Öndərin 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəldikdən sonra Qarabağa xüsusi diqqəti və qayğısı əməli işdə görünməyə başladı. Qarabağ dedikdə əlbəttə ki, sovet hakimiyyətinin ilk illərində təsis edilən Dağlıq Qarabağ Muxtar Vilayəti də bura daxildir. Lakin Ulu Öndərin muxtar vilayətin sosial-iqtisadi inkişafına önəm verməsi, şübhəsiz, Qarabağın əzəli sakinləri - Azərbaycan xalqının rifahının yaxşılaşması, qədim mədəniyyətimizin dirçəldilməsi məqsədi daşıyırdı. Təbii ki, əsas diqqət də Şuşaya yönəlmişdi. Görkəmli Azərbaycan şairi, Qarabağ xanının vəziri olmuş Molla Pənah Vaqifin məzarı məhz Heydər Əliyev hakimiyyətdə olduğu 1980-81-ci illərdə abadlaşdırıldı, məzarın üstündə məqbərə tikildi və Vaqifin abidəsi qoyuldu. Eyni zamanda Şuşada Vaqif Poeziya günlərinin, "Xarı bülbül" festivalının keçirilməsi qərarı verildi. Həmçinin 1982-ci ildə Şuşada Xan qızı Natəvanın da abidəsi qoyuldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 28 ildən sonra Şuşanın düşmən tapdağından azad edildiyini böyük qürur hissi ilə xalqa elan edərkən həm də bunu dedi ki, ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt sayır. Prezidentin postmüharibə dövründə verdiyi fərmanlara, imzaladığı sərəncamlara, çıxışlarında toxunduğu məsələlərə diqqətlə baxdıqda onun Ulu Öndərin təkcə siyasi fəaliyyətindəki kursu deyil, eyni zamanda ictimai və sosial sahələrdə həyata keçirdiyi işləri də davam etdirməyi qarşısına məqsəd qoyduğunu görə bilirik. Prezidentin Şuşada Vaqif Poeziya Günlərinin, eləcə də "Xarı bülbül" festivalının bərpa edilməsinə dair tapşırıqları bu qəbildən olan fəaliyyətdir.

**Mənfur qonşularımız Vaqifi də qısqanırmış**

Cənab Prezident zəfər nitqində "Əziz Şuşa, sən azadsan. Əziz Şuşa, biz qayıtmışıq. Əziz Şuşa, biz səni dirçəldəcəyik" dedi. Şuşanın azadlığından sonra ora qayıdış başlanıb artıq. İllərdir Şuşa həsrətiylə yanan ürəklər ora can atır. Şuşalılar da, əslən şuşalı olmayıb ürəyi Şuşada döyünənlər də Azərbaycanın incisini görməyə, havasını sinə dolusu ciyərlərinə çəkməyə tələsirlər. Sənətçilər də gedir. Şuşa sakinləri də. Təbii ki, icazə verilən qaydada. Bilirik ki, mənfur düşmən xainliyindən əl çəkməyib. Təhlükə ola bilər. Ona görə də rəsmi qaydada icazə verilən yerlərə gedilir. Şuşanı görənlər ermənilərin şəhəri dağıtdığına şahidlik edirlər. Amma hamı cənab Prezidentin sözünə inanır: Şuşa, biz səni dirçəldəcəyik. Necə ki, ötən əsrin 70-80-ci illərində Ulu Öndər Heydər Əliyev Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı halına gətirmişdi, eləcə də Prezident İlham Əliyev işğaldan xilas edilmiş Şuşamızı mədəniyyət paytaxtı elan etdi və buna müvafiq göstəriş və tapşırıqlarını verdi. Şübhəsiz ki, Vaqifin məqbərəsi də bərpa olunacaq, Xan qızı Natəvanın, Üzeyir bəyin, Bülbülün abidələri ucalacaq. Şuşa abadlaşacaq, yenə də incəsənət məkanına çevriləcək. Ötən əsrdə Ulu Öndərin Qarabağ siyasətinin konturlarını gözdən keçirərkən baş vermiş maraqlı və ibrətamiz hadisə qarşımıza çıxdı. Deməli, Şuşada Molla Pənah Vaqifin məzarının abadlaşdırılması, məqbərə tikilməsi, büstünün açılışı, Vaqif Poeziya Günlərinin keçirilməsi xain xislətli erməniləri narahat edirmiş. O dövrün sənədlərinə baxdıqda ermənilərin Heydər Əliyevin yürütdüyü siyasətdən Moskvaya şikayətlər etdiyi bəlli olur. Xankəndindən olan iki yaşlı erməninin 1979-cu ildə "Oqonyok" jurnalının 34-cü nömrəsində Dağlıq Qarabağa həsr edilmiş "Biz Qarabağdanıq" adlı oçerki dərc olunmuşdu. Oçerkdə bu iki erməni Dağlıq Qarabağın sosial-iqtisadi və mədəni həyatındakı uğurlardan bəhs edirdilər. Lakin bu oçerk Yerevanda narazılıqla qarşılanmışdı. Əslən Qarabağdan olan, atası Bakı fəhləsi olmuş, özü isə Yerevanda yaşayan erməni həkim Georgi Ter-Akopov o illərdə çox oxunan, geniş oxucu auditoriyası olan "Oqonyok" jurnalının redaksiyasına 5 səhifəlik məqalə göndərir. Məqalədə əvvəlki oçerkdə yazılanların guya yalan olduğunu bildirirdi. "Oqonyok" jurnalının baş redaktoru isə məktubu Azərbaycan Mərkəzi Komitəsinə, şəxsən Heydər Əliyevə göndərir və imkan daxilində məktubda yazılanlarla

### Nəriman Həsənzadə: "Gözəl məqbərə tikilmişdi. Allah lənət eləsin, ermənilərə. Pis günə qoydular o gözəllikdə abidəni"

bağlı mülahizələrini söyləməyi xahiş edirdi. Heydər Əliyev yenə də öz siyasi fəhmi ilə erməni həyasızlığına tutarlı cavab hazırlayır. Həm də ermənilərin özü tərəfindən. Heydər Əliyev məktubu Dağlıq Qarabağ Vilayət partiya komitəsinin katibi Gevorkova göndərir, ondan faktları tələb edir. Gevorkov da DQMV-nin statistik göstəriciləri, əhalinin vəziyyəti, iqtisadi göstəricilər və sairlə bağlı arayış hazırlayıb Mərkəzi Komitəyə göndərir. Heydər Əliyev şəxsən özü əldə etdiyi bu rəsmi məlumatlara əsaslanaraq "Oqonyok"un baş redaktoruna cavab məktubu yazır. Deyilənə görə, jurnalın baş redaktoru Safronov Azərbaycan KP MK-nın birinci katibi, Sov.İKP MK Siyasi Bürosuna namizəd Heydər Əliyevin məktuba şəxsən cavab verməsindən yaxşı mənada çox təəccüblənibmiş. Qeyd edək ki, erməni həkim məktubunda Azərbaycan rəhbərinin Dağlıq Qarabağda yalnız azərbaycanlıların mədəniyyət, incəsənət xadimlərinə abidə qoyulduğunu, yalnız Azərbaycan xalqının mədəniyyətinin dirçəldilməsi siyasəti aparıldığını yazıbmış, Vaqifin isə Qarabağ xanının vəziri olmasını xüsusi vurğulayaraq, sovet sisteminə yad adamın xatirəsinin belə yüksək səviyyədə yad edilməsinin kommunist ideologiyasına yad olduğunu özlüyündə sübut etməyə çalışmışdı. Lakin ermənilər belə cəfəng iddiaları ilə Heydər Əliyev dühasının qarşısında heç nəyə nail ola bilməzdilər. Heydər Əliyev Molla Pənah Vaqifin Azərbaycan-Rusiya əlaqələrinin möhkəmlənməsinə bir xalq şairi və xanlığın vəziri olaraq verdiyi töhfəni tarixi sübutlarla dəqiqliklə izah etmişdi. Vaqifin əsl xalq şairi olduğunu və xalqa xidmət etdiyini sübut etmişdi. Xalqın dəyərlərinin itirilməməsi, milli maraqlarımızın hər zaman yüksək tutulması, incəsənətimizə ziyan dəyməməsi, ədəbiyyat ənənələrimizin yaşadılması üçün Heydər Əliyev o zamanın sovet ideologiya maşınının istiqaməti ilə əsl milli ziyalı kimi necə hərəkət edilməli olduğunu bilirdi.



**Vaqif Poeziya Günləri Şuşanın poeziyasını özünə qaytaracaq**

Vaqif Poeziya Günlərinin, eləcə də "Xarı bülbül" festivalının keçirilməsinə yalnız mədəniyyət hadisəsi kimi baxılmamalıdı. Bu, mədəniyyət və incəsənət bayramı olması ilə yanaşı həm də siyasi məsələdir. Qarabağın Azərbaycana məxsusluğunu, Qarabağın havasında, torpağında, hər daşında, hər çiçəyində türk - Azərbaycan milli kimliyinin saxlandığının təcəssümü olmalıdır. Necə ki, Qarabağı ordumuzun, rəşadətli əsgərlərimizin şücaəti sayəsində işğaldan azad etdik, eləcə də Qarabağın büllur kimi saf havasını - xanəndələrimiz ifasında, şair və nasirlərimizin yazıları ilə dünyaya yaymalıyıq. Və bu torpaq bizimdir, deməliyik.

Heydər Əliyevin 1982-ci ilin yanvarında Şuşaya səfəri, Vaqifin məqbərəsinin açılışında iştirak etməsi Azərbaycan şair və yazıçılarının yaddaşında ən işıqlı xatirələrdəndir. Ümumiyyətlə, bəlkə bunu söyləmək artıqdır ki, Ulu Öndər yaradıcı insanlara xüsusi münasibəti vardı, səfərlərində hər zaman nümayəndə heyətinin tərkibində tanınmış şairlər, yazıçılar, incəsənət adamları olardı. Şuşaya bu səfərində də Heydər Əliyev elm, mədəniyyət adamlarının böyük bir qrupunu aparmışdı. **Bu addımıyla sanki ziyalılara, mədəniyyət adamlarına Şuşanı unutmayın, Şuşaya tez-tez səfər edin, mesajı verirdi. Həmin tarixi gündə Ulu Öndərlə birlikdə möhtəşəm tədbirdə iştirak edənlərdən biri də Xalq şairi Nəriman Həsənzadə olub. Nəriman müəllim o günü indi də çox yaxşı xatırladığını söylədi:**

- Heydər Əliyev ədəbiyyatı çox sevirdi, bütün şairləri, yazıçıları, sənət adamlarını şəxsən tanıyırdı. Vaqifin abidəsinin açılışına getdik. Tədbirdə iştirak etdik. Böyük bir abidə idi. Gözəl məqbərə tikilmişdi. Allah lənət eləsin, ermənilərə. Pis günə qoydular o gözəllikdə abidəni. Qış vaxtı, yanvar ayı. Şuşanın qışı sərt olur. Qarlı hava idi. Kipriklərimizə qar dənələri düşürdü. Qar deyildi, elə bil göydən çiçək yağırdı. Yağan qarın altında Heydər Əliyev özü tədbirin açılışını etdi. Sonra bir-bir hamımıza söz verdi. Kimlər yox idi orda?!. Korifey sənətkarlarımızın hamısı orda idi. Heydər Əliyev özü təqdim edirdi danışanları, həm də şeir diliylə, özü də şairləşmişdi. Mən də orda, Vaqifin abidəsi önündə şeir söylədim. Səməd Vurğunun adıyla başladım. Təxminən şeir belə idi ki, Vurğundan Vaqifə salam gətirmişəm. Böyük bir bayram oldu. Qayıdanda "Xarı bülbül" poemasını yazdım. Heç yadımdan çıxmaz o gün, ordakı şeir, poeziya bayramı. Vaqifə layiq bayram oldu. Vaqif dahi şairdi. Görün, 200 il əvvəl yazıb; xumar-xumar baxmaq göz qaydasıdır... Nə gözəl dil qoyub bizə. Vaqifin o gözəl, şirin dilini bərpa etməliyik. İnanıram ki, edəcəyik. Şuşamıza milli ruhu qaytaracağıq. O ruh onsuz da Şuşada var. Amma biz gərək Şuşanı bundan sonra daha da möhkəm qoruyaq. Təkcə ərazi, torpaq baxımından yox. Şuşanın ruhunu qoruyaq. Onun yadlaşmasına imkan verməyək.

**Mələhət Rzayeva**

# “Şuşaya gedən yolları minalamışdılar”

## “Topxana meşəsinin içi ilə yuxarı qalxdıq”

**Vətən müharibəsindəki qələbəmizin təməli 27 sentyabr 2020-də qoyuldu. Əslində isə bir-neçə ay öncəsindən zəfərə, Qarabağa gedən yol görünürdü. İyul ayında Tovuzda başlayan döyüşlər, o zaman şəhidlik zirvəsinə ucalan oğullar 30 il sonra xalqı ayıldıb, ”Dəmir yumruq” ətrafında birləşdirdi. Həmin vaxt şəhadətə qovuşan general-mayor Polad Həşimov üzünün nuru ilə Vətən səmalarını işıqlandırdı. Polad generalımızın şəhidliyi ürəyimizi elə dağladı ki, onun ağrısı ilə ayağa qalxdıq. Minlərlə gənc könüllü qeydiyyatdan keçərək Vətən uğrunda can verib, qan tökməyə hazır olduğunu söylədi. İkinci Qarabağ savaşında son günə qədər vuruşan Zahir Zeynalov kimi.**







### Zahir Zeynalov: “O hayqırışlar, əsgər yoldaşlarımın iniltisi, top və minamyot səsləri qulağımdan getmir”

*Zahir də Polad paşanın şəhadətindən sonra könüllü orduya yazılıb. Vətən savaşı başlayanda hərbi komissarlıqdan çağırılıb. Ağcabədi rayonunda bir həftəlik təlimin ardından ön xəttə göndərilib. Zahirin döyüş yolu Füzulidən başlayıb. Füzuli, Qubadlı, Cəbrayıl, Zəngilan və Şuşa istiqamətlərində vuruşub.*

*Bu Vətən oğlu ilə instaqramda rastlaşdıq. Şuşadan paylaşdığı fotosunu gördüm. Bir ümidlə yazdım ki, bəlkə, cavab verər. Nəhayət, Zahirlə həmsöhbət olduq. Amma bir saata yox, təxmini bir aya müsahibəni tamamladıq. Çünki o zaman Zahirin xidməti davam edirdi. Xocavənddə idi. İmkan tapdıqca yazır, döyüş yolundan danışırdı. Altı gün öncə tərxis olunub.*

**Cəbhə gündəliklərini Zahirin dilindən ”Şərq”də oxuyaq.**

- Füzuli rayonunda gecə saatlarında hərəkətə başladıq. Onda düşmən bizi artilleriya ilə hədəf alırdı. Ona görə dağlara sığınmalı olduq. Bu zaman digər hərbi hissə əks-hücuma keçdi. Səhər açılanda eşitdik ki, əsgərlərimizdən şəhadətə qovuşanlar var.

**- Bəs, siz nə etdiz?**

- Səhər saat 6 radələrində Cəbrayıla doğru irəlilədik, iki saat yol getdik. Cəbrayıl dairəsinə az məsafə qalmış maşınları saxladıq. On dəqiqə ərzində mövqe tutduq. Həmin dəqiqələrdə əsgərlərimiz düşmənin dronunu gördülər. Birdən 120 mm-lik minamyot mərmisi yaxınlığımıza düşdü. Şəhid və yaralananlarımız oldu. Kömək gəldikdən sonra qoşunlarımız bizi vuran yüksəkliyi bir həftəyə haropla darmadağın etdilər. Biz yenidən irəlilədik. Nəhayət, Cəbrayıl rayonunun mərkəzinə çatdıq. Bir həftəlik mühafizə təşkilinin ardından erməni briqadasına girdik. Oranı çoxdan boşaltmışdılar. Həmin briqadada 1 gecə qaldıq. Koordinatı bildikləri üçün piyada kolonlarla Zəngilana tərəf yol aldıq. Onu da qeyd edim ki, Zəngilan düzənlikdədir. Zəngilandan sonra Qubadlı rayonunun Muğanlı kəndinə daxil olduq. Düşmən qratlarla atəş açırdı.

**- Necə qorunurdunuz?**

- Kənddə yerləşib, mövqe tutduq. İnanın, bizi Allah qoruyurdu. Biz həmin ərazidə 19 yaşlı ermənini əsir götürdük. Bir müddət sonra ermənilərin hərbi hissəsinə əks-hücuma keçdik. 20 gün orada qaldıq. Əslində 15 gün rahat məskunlaşmışdıq. Lakin xəbər gəldi ki, düşmənin aviasiya hücumu gözlənilir. Rabitəni götürüb əks-hücuma keçdik. Gorus istiqamətində bir yüksəkliyi götürdük. Səhərə kimi nizamla səngər qazdıq. Sübh tezdən komanda müşahidə məntəqəsi seçib, gizləndik. Gorus istiqamətindəki yüksəkliyin əhəmiyyəti böyük idi. Onu ələ keçirməliydik. Ona görə qrup yaradıb, arxa tərəfdən təpəyə qalxdıq. Çatanda gördük ki, ermənilər postdan çıxıb, kəndə ərzaq gətirməyə gediblər. Yüksəklikdə möhkəmləndik. Səhər açılırdı, gördüm ki, ermənilər posta tərəf gəlir. Dərhal komandirə məruzə etdim. Komandirimiz dedi ki, atəş açmayın, bir az yaxınlaşsınlar. Düşmən posta çathaçatda atəş açıb, hamısını məhv etdik. Bir hissəsi də qaçdı. Saat 10:00-da düşmən D-30 topları ilə yüksəkliyimizi vurmağa başladı. On gün orda qaldıq. Ərzağımız tükənmişdi, yaralılarımız var idi. Lakin geri çəkilmədik. Bütün çətinliklərə rəğmən postu qoruduq. Post Qubadlının ermənilərlə sərhədində yerləşirdi. Düşmən də hücuma keçib, təpəni ələ keçirməyə çalışırdı. Amma bacarmadı...

**- Şuşa döyüşlərində nələr baş verdi?**

- Biz Qubadlıda olarkən müharibə dayandı. Şuşada XTQ işləyirdi.

**- Müharibənin sizin üçün ən çətin anını xatırlayırsınızmı?**

- 44 günün hər günü yadımdadır. Məsələn, Qubadlıda 92 kənd var idi deyə çox əziyyət çəkdik. Təsəvvür edin, mühasirədən çıxa bilmirdik, 5 gün, 5 gecə sürünə-sürünə mövqeyi dəyişirdik, ac-susuz qalmışdıq. Dilimiz, ağzımız qurumuşdu. Döyüş yoldaşlarımızla vidalaşırdıq. Hər saniyə, hər dəqiqə ölüm burnumuzun ucunda idi. Minamyot düşüb, hamımızı paramparça edə bilərdi. Çətin idi, çox çətin.

**- Silahdaşlarınızın gözünüzün önündə şəhid olması əzabvericidir. Təxmin edirik...**

- 7 canavar kimi oğul getdi...

**- Səhifənizdə Şuşadan fotolarınızı gördüm. Ora nə vaxt yollandınız?**

- Noyabrın 10-u müharibə dayandı. Bizə əmr verildi ki, Şuşaya gedirsiz. Səhər tezdən 5-də yola çıxdıq, 2 günə şəhərə çatdıq. Ermənilər Şuşaya gedən yolları minalamışdılar. Biz də Topxana meşəsinin içi ilə piyada qalxdıq.

**- Gözəlliyi dillərə dastan Şuşamızı görəndə təəssüratlarınız necə oldu?**

- Məni qəhər boğurdu. Çünki biz döyüş yoldaşlarım, bütün müharibə iştirakçıları 30 ildən sonra tarix yazdıq. Addımladıqca, dumanı yardıqca qürurlanırdıq. Şuşanı görmək hər insana qismət olmur.

**- Bəli. Amma bu sizin haqqınız idi. Bəs, indi mülki həyata adaptasiya prosesiniz çətin deyil?**

- 5 gündür gəlmişəm, ab-havaya uyğunlaşa bilmirəm. O hayqırışlar, əsgər yoldaşlarımın iniltisi, top və minamyot səsləri qulağımdan getmir.

**- Allah köməyiniz olsun. Borcunuzdan çıxa bilmərik...**

- Vətən sağ olsun!

**Samirə**

## Hadrutda küçələrə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adı verilib



**İşğaldan azad olunan Hadrut qəsəbəsində küçələrə ünvan lövhələrinin quraşdırılmasına başlanılıb.**

APA-nın Hadruta ezam olunmuş əməkdaşının verdiyi məlumata görə, ünvan lövhələri İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin müvafiq qurumları tərəfindən quraşdırılır.

Hadrutda küçələrə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adı verilib.

## Bakı-Sumqayıt qatarı iki gün işləməyəcək



**Nazirlər Kabinetinin qərarına müvafiq olaraq, Bakı-Pirşağı-Sumqayıt elektrik qatarları 9 və 10 yanvar (şənbə və bazar) günləri hərəkətdə olmayacaq.**

”Azərbaycan Dəmir Yolları” QSC-dən verilın məlumata görə, 11 yanvar tarixindən etibarən cari cədvəl üzrə hərəkət bərpa olunacaq.

## 532 nəfər yoluxub, 24 nəfər vəfat edib

### Azərbaycanda daha 1 879 nəfər koronavirusdan sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 532 yeni yoluxma faktı qeydə alınıb, 1 879 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan “Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 24 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 223 417 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 205 406 nəfər müalicə olunaraq sağalıb, 2 869 nəfər vəfat edib, aktiv xəstə sayı 15 142 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 8 383, ötən müddət ərzində isə ümumilikdə 2 250 291 test aparılıb.

## Xocavəndin Böyük Tağlar kəndində yük maşını dərəyə aşıb, sürücü ölüb



**Xocavənddə ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib.**

Daxili İşlər Nazirliyinin (DİN) mətbat xidmətindən APA-ya verilən xəbərə görə, rayonun Böyük Tağlar kəndi ərazisində Ağstafa rayon sakini E.Qarayev idarə etdiyi ”KamAZ” markalı avtomobili dərəyə aşırıb və aldığı xəsarətlərdən hadisə yerində ölüb.

*Xocavənd Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.*

# Monopolistlər Ağdama və ya başqa rayonlara buraxılmamalıdır

## Bütün kənd torpaqları əhaliyə paylanmalıdır ki, vətəndaşlarımız özünüməşğulluq proqramlarına cəlb olunsun

Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunan müşavirədə bildirib ki, bu il şəhid ailələri üçün daha böyük həcmdə evlərin verilməsi təmin edilməlidir. Dövlət başçısı qeyd edib ki, Vətən müharibəsində şəhid olmuş qəhrəman hərbçilərimizin doğmalarına, yaxınlarına mənzillər təqdim ediləcək:



"Onu da bildirməliyəm ki, bundan sonra məcburi köçkünlər üçün evlər ancaq azad edilmiş torpaqlarda tikiləcək. Bəzi layihələr davam edir, bəzi layihələr başa çatmaq üzrədir.

Bu yaxınlarda müşavirə keçirərkən mənə məlumat verildi ki, bütövlükdə keçmiş məcburi köçkünlərin 52 faizi şəhərlərdə məskunlaşıb. Həmin insanların böyük əksəriyyəti kənd yerlərindən didərgin salınıb, ancaq nədənsə, məskunlaşma şəhərlərdə aparılıb. Əlbəttə ki, bu insanları yenə də rayon yerlərinə qaytarmaq üçün xüsusi proqram olmalıdır. Mən bu yaxınlarda Prezident Administrasiyasına göstəriş verdim ki, köçkünlər arasında sorğular keçirilməlidir, onların niyyəti öyrənilməlidir. Həm evlərlə təmin olunmuş köçkünlər, həm də bu günə qədər yataqxanalarda, yaxud da uşaq bağçalarında ağır vəziyyətdə yaşayan köçkünlər arasında sorğular keçirilməlidir ki, biz real vəziyyəti biləк. Özümüz-özümüzü aldatmamalıyıq, real vəziyyəti bilməliyik. Xahiş edirəm köçkünlərdən, onlara sual veriləndə səmimi cavab versinlər - öz dədə-baba torpaqlarına getmək fikirləri var, yoxsa yox. Bizə bildirsinlər, biz də bilək və buna görə öz bərpa işlərimizi həyata keçirək. Mən tam əminəm ki, keçmiş köçkünlərin mütləq əksəriyyəti böyük həvəslə öz doğma torpaqlarına qayıdacaqlar. Buna nail olmaq üçün dövlət əlindən gələni əsirgəməyəcək".

**Millət vəkili Aqil Abbas "Şərq"ə söyləyib ki, məcburi köçkünlərimiz doğma torpaqlarına qayıdacaqlar. Dövlət vətəndaşlar üçün lazım olan hər cür şəraiti yaradacaq:** "Onlar azad edilən ərazilərə gedib, özləri üçün ev tikəcəklər, imkansız vətəndaşlara isə dövlət qayğı göstərəcək. Məcburi köçkünlərin Bakıda nə işi var? Azad edilən bütün rayonlarımızda infrastruktur layihələri həyata keçiriləcək, yeni iş yerləri açılacaq. Vətəndaşların işlə təmin olunması üçün ciddi proqram layihələri hazırlanır.

Eyni zamanda kənd təsərrüfatı sahəsinin inkişafı üçün də dövlət mühüm işlər görməlidir. Ağdamda heyvandarlıq və digər kənd təsərrüfatı inkişaf edən sahələrdən biridir. Bu sahədə əlverişli imkanlar quruldudqan sonra köçkünlərimiz qazanc əldə edə bilərlər".

**Deputat hesab edir ki, azad edilən rayonlardakı kənd təsərrüfatı yalnız geri qayıdan köçkünlərə verilməlidir:** "Hansısa bir monopolist Ağdam və ya başqa rayonlara buraxılmamalıdır. Bütün kənd torpaqları əhaliyə paylanmalıdır ki, vətəndaşlarımız özünüməşğulluq proqramlarına cəlb olunsun. Onlar 2-3 il çalışsalar, öz evlərini tikə bilərlər. Ağdamın çoxlu sayda sənaye müəssisəsi, şərab zavodları olub. Dövlətimiz bu müəssisələri bərpa edib vətəndaşlara verməlidir.

Kimsə bu sahəyə investisiya yatırsa, həmin şəxslərdən 10 il vergi alınmamalıdır. Hətta bu şəxslərə faizsiz kredit verilməlidir".

**Yeganə Bayramova**



## Türkiyədə koronadan 186 nəfər ölüb

**Türkiyədə yeni növ koronavirusdan (COVID-19) sutka ərzində 186 nəfər ölüb.**

APA-nın yerli bürosunun xəbərinə görə, Türkiyənin Səhiyyə naziri Fəxrəddin Qoca açıqlamasında bildirib ki, son 24 saatda simptomları da müəyyən edilməyən xəstələrlə birlikdə daha 11 479 nəfər COVID-19 infeksiyasına yoluxub.

Bu gün yeni növ koronavirusdan sağalan xəstələr 9 894, ağır xəstələr isə 3 094 nəfər olub.

*Qeyd edək ki, Türkiyədə indiyədək yeni növ koronavirus simptomları da müəyyən edilməyən 2 307 581 nəfər COVID-19 xəstəsi olaraq qeydə alınıb, onlardan 2 182 145 nəfər sağalıb, 22 450 nəfər isə ölüb.*

*Nazir deyib ki, ağır xəstə sayı azalmağda davam edir.*



# Yaralı əsgər döyüş səhnəsini unuda bilmir

## "Yoldaşlarıma kömək edə bilmədim, qan məni aparırdı"

"Şəhidlər ölməz, Vətən bölünməz" ifadəsinin nə qədər doğru olduğunu İkinci Qarabağ müharibəsində bir daha gördük. Minlərlə igidimiz şahadətə qovuşsa da, onlar bizim qəlbimizdə əbədi yaşayır və yaşayacaq.

Şükür, düşmənin vətənimizi növbəti dəfə bölməsinə də imkan vermədik. Əksinə, tarixi ədaləti bərpa edərək, işğal altındakı torpaqlarımızın böyük bir hissəsini geri aldıq. Bu yolda şəhidlərimiz qədər qazilərimizin də böyük xidmətləri oldu. Hər şeydən əvvəl ona görə ki, ölümün nəfəsini hiss etdilər...

**Gənc əsgər İlkin Allahverdiyev də cəmi iyirmi yaşında müharibənin iştirakçılarından biri olub. Və şükür ki, sağ qayıtdı. Göstərdiyi şücaətə, Cəbrayıl və Qubadlının azad olunmasına görə medala layiq görüldü. Amma 44 günlük hərbi əməliyyatlar onda həm fiziki, həm də mənəvi izlər qoyub.**

**İlkin özünün savaş yolu barədə "Şərq"ə danışıb:** "Orta məktəbi 2019-cu ildə bitirdim. 2020-ci il yanvarın 7-də isə vətəni müdafiəyə çağrıldım. N saylı hərbi hissədə motoatıcı vəzifəsində xidmət etdiyim dövrdə komandirlərin tapşırıqlarını qüsursuz yerinə yetirməyə çalışırdım. Prezident, Ali Baş Komandan İlham Əliyevin "Hücum!" əmrini səbirsizliklə gözləyirdik. Nəhayət, o gün gəldi.

Sentyabrın 27-də komandir heyəti bizi cərgəyə düzərək müharibənin başlandığını elan etdi. Həmin anlarda hər kəsdə - bütün şəxsi heyətdə qəribə bir ruh yüksəkliyi yarandı. İlk günlərdən etibarən əldə etdiyimiz uğurlar bizi daha da ruhlandırırdı.

Əsgərləri saxlamaq olmurdu. Hər kəs döyüşə atılırdı. Oktyabrın 5-də bizi Füzuliyə apardılar. Yoldaykən yemək, dincəlmək üçün vaxt ayrılsa da, hər kəs etiraz edirdi.

Çünki torpaqlarımıza qovuşmağa tələsirdik. Sürətlə irəliləyirdik. Bir də baxdıq ki, Qubadlıdayıq. Bizə müqavimət göstərir, minamyotdan atəş açırdılar. Döyüş vaxtı qəfil üzümü çevirəndə yoldaşlarımın yaralandığını gördüm. Onlara kömək etmək istədim, amma tərpənə bilmirdim. Yalnız bu zaman ayağımın sındığına, qarın nahiyəmdən qan axdığını hiss etdim.

Bizi ərazidən çıxarıb Füzuli xəstəxanasına apardılar. Həkimlərə, həmçinin bizə hər cür diqqət və qayğı göstərən mülki şəxslərə öz təşəkkürümü bildirirəm. Hazırda müalicəmi evdə davam etdirirəm. Hər şeydən razıyam. Özümü bircə ona görə danlayıram ki, əsgər yoldaşlarımın yanında sonadək qala bilmədim. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirəm".

**Kənan Novruzov**

# Rusların vəzifəsi dinc əhalini qorumaqdır

## Ermənilər sülhməramlıların vəzifəsini səhv anlayır



Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə Ermənistan tərəfinə ciddi mesajlar verib: "Ermənistan Azərbaycanın humanist siyasətindən nəticə çıxarmalı və təxribatçı addımlar atmamalıdır. Bunun cavabı sərt olacaq və Ermənistan böyük problemlə üzləşəcək". Maraqlıdır, düşmən bu ismarıcdan nəticə çıxaracaqmı? Yoxsa, yenə də "öz havasına özü oynayacaq?".

**Politoloq İlqar Vəlizadə "Şərq"ə açıqlamasında bildirib ki, qarşı tərəf baş verənlərdən dərs almalıdır:** "Təəssüf ki, Ermənistan yeni reallığı dərk edə bilmir. Sərsəm bəyanatlar onu göstərir ki, nəinki reallığı dərk etmir, hətta dekonstruktiv mövqe tutur. Yəni Hadrutdan sonra növbəti təxribatlar da ola bilər. Amma əgər belə bir hal olarsa, Ermənistan bu dəfə layiqli cavabı alacaq. Ermənilər rus sülhməramlılarının vəzifəsini səhv başa düşür, onların köməyə gəldiklərini düşünürlər. Bu, belə deyil. Ola da bilməz. Rusların vəzifəsi dinc əhalini qorumaqdır. Hərçənd, dövlət başçısının da dəfələrlə vurğuladığı kimi, bizim mülkilərlə heç bir işimiz yoxdur. Heç yerdə, heç bir sənəddə göstərilməyib ki, bir ölkə qanunsuz silahlı dəstələr saxlaya, digər ölkənin suverenliyini poza bilər. 10 noyabr bəyanatında yazılanlar çox aydındır: erməni silahlıları Qarabağdan çıxarılmalıdır. Əgər onlar kordurlarsa və bunu oxuya bilmirlərsə, biz bir dəfə olduğu kimi, yenə işğalçıların "gözlərini açarıq".

### "Monitorinq mərkəzi yaradılandan sonra "daşlar yerinə oturacaq"

**İ.Vəlizadənin fikrincə, hələ ki, "sular bulanıqdır":** "Genişmiqyaslı müharibə olmasa da, hərbi toqquşmaların başlanmasını istisna etmirəm. Xüsusilə, türk sülhməramlıları bölgəyə yerləşəndən, monitorinq mərkəzi fəaliyyətə başlayandan sonra sərt addımlar atılacaq. Əgər erməniləri ruslar tərksilah etmirsə, türklər edərlər. 10 noyabr bəyanatından sonra da səngərlər, istehkamlar hazırlayan, sərsəm bəyanatlar səsləndirən, təxribatlar törədən ermənilərin ağılları bundan sonra başlarına gələr. Fikrimcə, monitorinq mərkəzi yaradılandan sonra "daşlar yerinə oturacaq".

**Kənan**

## İctimai və dövlət maraqlarının müdafiəsi

# Gözləntilər böyükdür

## Daha müraciət edəcəyimiz, qapısını döyəcəyimiz konkret ünvan olacaq

**Qələbə ilə başa çatan Vətən müharibəsi iştirakçılarına, şəhid ailələrinə qayğının dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri olması müharibədən sonrakı dövrdə dövlət başçısı tərəfindən imzalanan sərəncam və fərmanlarda özünü göstərir. Bunu ən bariz nümunəsi şəhid ailələri, yaralı əsgər və zabitlərin ehtiyaclarının ödənməsi məqsədilə yaradılmış "Yaşat" Fondudur. Məlumdur ki, Fond artıq fəaliyyət göstərir və şəhid ailələri, yaralı əsgərlərin, zabitlərin, ümumilikdə isə Birinci Qarabağ savaşı, istərsə də Vətən müharibəsi iştirakçılarının ehtiyaclarının öyrənilməsi istiqamətində iş aparılır.**



Müharibə iştirakçılarına qayğının daha da artırılması məqsədilə bu günlərdə Prezident İlham Əliyev tərəfindən "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" fərmana dəyişikliyi nəzərdə tutan digər bir fərman imzalanıb.

Dəyişikliyə əsasən Azərbaycanda yerli icra hakimiyyəti orqanlarında "Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsi" yaradılır.

Dəyişikliyə əsasən, "Bakı Şəhər İcra Hakimiyyəti, Səbail, Nəsimi, Nərimanov, Nizami, Xətai, Yasamal, Xəzər, Qaradağ, Sabunçu, Suraxanı, Pirallahı və Binəqədi rayonlarının icra hakimiyyətlərinin, Gəncə Şəhər İcra Hakimiyyəti, Sumqayıt Şəhər İcra Hakimiyyəti, Şirvan və Mingəçevir Şəhər İcra hakimiyyətləri, Lənkəran Şəhər İcra Hakimiyyəti, Yevlax və Şəki Şəhər İcra hakimiyyətləri, Naxçıvan Şəhər İcra Hakimiyyəti, Naftalan Şəhər İcra hakimiyyətlərinin aparatlarının strukturunda bununla əlaqədar müvafiq dəyişiklik edilib.

Eyni zamanda Azərbaycanın digər rayonlarında da yeni şöbənin yaradılması ilə "Rayon icra hakimiyyəti başçısı aparatının nümunəvi strukturu"nda müvafiq dəyişiklik edilib.

### Yeni fərman icra orqanlarının məsuliyyətini artırır

**Qarabağ Qaziləri Birliyinin sədri Asəf Əliyev "Şərq"ə açıqlamasında Prezidentin imzaladığı fərmanın müharibə iştirakçılarının sosial vəziyyətinin yaxşılaşması istiqamətində növbəti mühüm addım olduğunu dedi:**

- Belə bir fərmanın imzalanması çox lazımlı, zamanında verilmiş qərardır. Bu fərman qazilərin, müharibə iştirakçılarının problemlərinin həllini tezləşdirməkdə, problemlərin həllini ələqədar strukturlar qarşısında qaldırmaq və həllini tələb etməkdə bizə çox kömək edəcək. Paytaxtda, regionlarda icra strukturları fərqli iş prinsipinə malikdir. Qazilərə, müharibə iştirakçılarına hamısı eyni münasibət bəsləmir. Eləsi var, müəyyən bir məsələ ilə bağlı müraciət edirsən, müsbət reaksiya ilə qarşılaşırsan, məsələnin həllinə tez göstəriş verir, problemi həll edirlər. Amma elələri də olur ki, səhlənkar yanaşırlar. Diqqət göstərmirlər. Amma bu fərmanın imzalanması ilə bizim müraciət edəcəyimiz, qapısını döyəcəyimiz konkret ünvan olacaq. Artıq biləcəyik ki, hara, hansı şöbəyə müraciət edilməlidir. Bir növ müraciət edəcəyimiz ünvan, vəzifəli şəxs konkretləşir. Bu da əlbəttə çox müsbətdir, gözləntilərimiz böyükdür.

### İcra hakimiyyətlərində yaradılan qazilər və şəhid ailələri ilə işin təşkili şöbəsi problemlərin vaxtında həllinə kömək edəcək

*Birlik sədri qeyd etdi ki, Qarabağ Qaziləri Birliyi həmişə müharibə iştirakçılarının problemlərinin həllində aktiv iştirak edib:*

- Konkret şöbələr olmadığı vaxtlarda da bizim ictimai birlik qazilərin, müharibə veteranlarının problemləri ilə məşğul idi. Müalicəyə ehtiyacı olanların müalicəsinin təşkili üçün Qarabağ Qaziləri İctimai Birliyi səhiyyə müəssisələri ilə əlaqə yaradırdı, səhhətində problem olanları səhiyyə müəssisələrinə yönləndirirdi. Son dövrdə 10-12 nəfər qazini, həmçinin onların ailə üzvlərinin də ürək-damar tıxanıqlığı probleminin həllinə nail olmuşuq. Biz fədakar, heç bir qarşılıq ummadan qazilərə xidmət edən həkimlərə minnətdarıq. Amma elə də olur ki, qazinin səhhətində yaranmış problemlə bağlı səhiyyə müəssisəsinə müraciət etmişik, cavab verməyiblər, kömək göstərməyiblər. Hər cür halla qarşılaşırıq. Qazinin, müharibə iştirakçısının köməksiz vəziyyətdə qaldığını görmək, əlbəttə, çox ağırdır. Amma Prezidentin imzaladığı fərman bizim işimizi asanlaşdırır, icra orqanlarının da üzərinə məsuliyyət qoyur. Bundan sonra icra hakimiyyətləri daha da məsuliyyətlə işləməli, köməyə, yardıma ehtiyacı olan qazilərin müəyyənləşməsində, onların problemlərinin həllinə çalışmalıdırlar.

### Müharibə iştirakçılarının problemləri operativ həll olunmalıdır

Azərbaycanda rayon, şəhər və icra hakimiyyətlərində Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin yaradılması mütəxəssislər tərəfindən müsbət dəyərləndirilir. Fərmanda Azərbaycan Respublikası şəhər, rayon və şəhər rayonu icra hakimiyyəti başçısı aparatının, icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin nümunəvi strukturu və ştat vahidlərinin sayında dəyişiklik edilməsi nəzərdə tutulur. Qeyd edək ki, yeni şöbə Şöbə müdiri və Böyük məsləhətçi ştatlarından ibarət olacaq.

**İmzalanmış fərmanla bağlı fikirlərini "Şərq"ə bildirən millət vəkili Cavid Osmanov vurğulayıb ki, Azərbaycanda şəhid ailələri, müharibə əlilləri, veteranlar, hərbi qulluqçuların sosial müdafiəsinin təmin edilməsi, onların rifah halının yüksəldilməsi və problemlərinin həlli dövlət siyasətinin mühüm tərkib hissəsini təşkil edir:**

- Birinci Qarabağ savaşının şəhidləri və onların ailə üzvləri, müharibə əlilləri və digər bu kateqoriyadan olan şəxslərə maliyyə dəstəyinin göstərilməsi, mənzillərlə, minik avtomobilləri ilə təminatı, müalicəsi, sosial durumunun yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən hər zaman ardıcıl tədbirlər həyata keçirilib. Əlbəttə ki, qələbə qazandığımız Vətən müharibəsindən dərhal sonra da Cənab Prezidentimiz tərəfindən bir sıra sərəncamlar imzalandı. Müharibə iştirakçıları, qəhrəman əsgər və zabitlərimiz orden və medallarla təltif edildilər.

Onlara verilən müavinətlərin həcmi artırıldı. Prezidentimiz tərəfindən həmin vətəndaşların rifahının yaxşılaşdırılmasına xidmət edən bir çox sosial proqramlar həyata keçirilir. Cənab Prezident bu günlərdə keçirdiyi müşavirədə Qaçqın və Məcburi Köçkünlərin Problemləri üzrə Dövlət Komitəsinin balansında olan mənzillərin Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinə verilərək, növbəlilik əsasında Vətən müharibəsi iştirakçılarına, şəhid ailələrinə verilməsinin həyata keçirilməsini də vurğuladı. Xatırladım ki, bir müddət əvvəl Prezident İlham Əliyevin sərəncamı ilə "YAŞAT" fondu yaradılıb. Bu fond da həmin ailələrin problemlərinin həllində mühüm rol oynayacaq. İcra hakimiyyətlərində qazilər və şəhid ailələri ilə işin təşkili şöbəsinin yaradılması bu qəbildən olan tədbirlərin davamıdır. Bu çox gözəl təşəbbüsdür və təqdirəlayiqdir. Çünki məhz bunun sayəsində həmin yerlərdə hər bir şəhid ailəsinin, Qarabağ əlilinin problemləri dərhal və operativ şəkildə həll olunacaq. Bu isə vacib məqamdır. Onların müraciətinə operativ şəkildə baxılacaq və yerli icra hakimiyyətində fəaliyyət göstərən bu şöbə daim onların qayğıları ilə məşğul olacaq.

### Qərarlar müharibə iştirakçılarının sosial vəziyyətinin yaxşılaşmasına yönəlib

*Qeyd edək ki, Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə bir sıra vacib məqamlara toxundu. Prezident işğaldan azad edilmiş ərazilərdə məskunlaşma ilə bağlı mühüm göstərişlər verdi. Həmçinin qeyd etdi ki, məcburi köçkünlər üçün nəzərdə tutulmuş evlər bundan sonra şəhid ailələrinə veriləcək:* "Bu il biz şəhid ailələri üçün daha böyük həcmdə evlərin verilməsini təmin etməliyik. Bütövlükdə 9 mindən çox şəhid ailəsi dövlət tərəfindən evlərlə və mənzillərlə təmin edilib. Keçən il 1500 şəhid ailəsi üçün evlər nəzərdə tutulurdu. Əmək və əhalinin sosial müdafiəsi naziri bu yaxınlarda mənə məruzə edib ki, yanvarın 15-dək bu 1500 ailə evlərlə təmin olunacaq. Bu proqram bu il də davam etdirilməlidir. Vətən müharibəsində şəhid olmuş qəhrəman hərbçilərimizin doğmalarına, yaxınlarına evlər veriləcəkdir. Onu da bildirməliyəm ki, bundan sonra məcburi köçkünlər üçün evlər ancaq azad edilmiş torpaqlarda tikiləcək".

*Qeyd edək ki, Prezidentin qərarlarının icrası istiqamətndə işlərə başlanılıb.*

"Ölkə başçısının qərarına əsasən, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin xətti ilə 2020-ci ildə məcburi köçkünlər üçün inşa edilən qəsəbələr və hündürmərtəbəli yaşayış binaları Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin balansına verilir. Söhbət 4700-ə yaxın çoxmənzilli qəsəbələrdən və hündürmərtəbəli yaşayış komplekslərindən gedir". **Bunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov "Yeni" TV-nin canlı yayımında bildirib. Onun sözlərinə görə, həmin qəsəbələr Bakı şəhəri, Sumqayıt şəhəri, Abşeron rayonu ərazisində, həmçinin, Samux və Lənkəran rayonunun ərazisində inşa edilib:** "Bu mənzillər artıq istifadəyə hazırdır. Bu yaşayış kompleksləri bütün zəruri olan sosial texniki infrastrukturla təmin edilib, yaşayış üçün tam hazırdırlar".

F.Hüseynov qeyd edib ki, həmin mənzillərin paylanılma mexanizmi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin səlahiyyətinə verilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıbov isə bildirib ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin balansında olan evlərin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin balansına verilməsi ilə bağlı işlərə artıq başlanılıb. O qeyd edib ki, yeni mənzil proqramı Vətən müharibəsinin iştirakçılarına, şəhid ailələrinə şamil ediləcək. Aidiyyəti qurumlarla proqramların hazırlanması və icrası istiqamətində detallar müzakirə olunacaq. Bu barədə geniş məlumat veriləcək. Məcburi köçkünlər işğaldan azad edilmiş doğma yurdlarına qayıtdıqdan sonra bu mənzillərlə bağlı məsələyə də baxılacaq.

Erməni təcavüzü nəticəsində doğma yurd-yuvalarından didərgin düşmüş vətəndaşlarımızın işğaldan azad edilən torpaqlara qayıtması, orada məskunlaşması Azərbaycan insanının illərdir həsrətində olduğu məsələdir. Məcburi köçkünlər üçün tikilmiş evlərin dövlətimizin ərazi bütövlüyü uğrunda döyüşmüş, Vətən torpağının müdafiəsində iştirak etmiş Ana torpaq üçün can qoymuş igidlərə və onların ailə üzvlərinə, yaralı qazilərimizə verilməsi də çox gözəl təşəbbüsdür. Məlumdur ki, şəhid ailələri və Qarabağ qaziləri arasında aztəminatlı və mənzil şəraiti pis olanlar var. Belə bir qərarla bu insanların da mənzil şəraiti yaxşılaşacaq, sosial problemləri həllini tapmış olacaq.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunub

# "Akkord" əjdaha kimi suyun başında dayanıb

## Qazaxın Daş Salahlı kəndinə məxsus olan suyu kəndə vermirlər



Bakı şəhər sakini Əliyev Əvəz Hüseyn oğlu doğulduğu Qazax rayon Daş Salahlı kəndinin həle də həllini tapmayan su problemi barədə redaksiyamıza müraciət edib. Uzun illər hüquq-mühafizə orqanlarında çalışdığını deyən Əvəz bəy məsələ ilə bağlı aidiyyəti qurumlara müraciət etsə də, heç bir nəticə vermədiyini bildirib: "Kəndimizdə "Dəmyə" deyilən bir ərazi var. Bu ərazi dağın ətəyində yerləşir və susuz bir yerdir.

2016-cı ildə həmin ərazidən 10 sot yer aldım və ev tikdim. Evimin yuxarı hissəsindən 50-100 metr məsafədə "Akkord Sement Zavodu"nun su kəməri gedir. Hansı ki, həmin su nəinki Daş Salahlı kəndinə, bütün Qazax rayonuna bəs edər.

Kəndin su problemi illərdir ki, qalır. Kənddə elə məhəllələr var ki, hər dəfə 20 manat verib su gətizdirir. Bu haqda müvafiq orqanlara şikayət məktubu yazdım.

Növbəti dəfə qərara gəldim ki, "Akkord Sement Zavodun"dakı su kəmərinin kənd sakinlərinə verilməsi üçün müraciət edim. Əvvəla onu deyim ki, zavod ərazisindəki torpaq və su, bir sözlə, bütün yer Daş Salahlı kəndinin sakinlərinə məxsusdur.

Hazırda elə bir dövrdür ki, insanları sayan yoxdur, kimin imkanı varsa, o öndədir. Bu barədə Milli Məclisin sədri Sahibə Qafarovaya və Milli Məclisin Aparat rəhbəri Səfa Mirzəyevə yazdım. Eyni zamanda millət vəkili Səməd Seyidova da müraciət etdim. Məktubumda Səməd müəllimə bildirdim ki, siz bizim rayonun millət vəkilisiniz, xahiş edirəm köməklik göstərin əhali su ilə təmin edilsin. Səməd müəllimin köməkçisi Akif Əmrullayev mənimlə danışıb vurğuladı ki, məsələ ilə maraqlanacaqlar.

Ə.Əliyev bildirib ki, evinin yanında kənd sakinlərinin rahatlığı üçün oğlu Emil Əliyevin adına bulaq tikdirmək istəyir:

"Oğlum Emil Əliyev 2009-cu ildə Naxçıvan Dövlət Universitetinin "Hüquq fakültəsi"nin 4-cü kursunda oxuyarkən xərçəng xəstəliyinə düçar oldu. Oğlumu 3 il respublikadan kənarda müalicə etdirdim.

Amma heç bir fayda vermədi. Oğlum 2011-ci ildə dünyasını dəyişdi. Bir ata üçün ən ağır olan acı həqiqətlə bu gün Daş Salahlı kəndinin "Dəmyə" ərazisində yaşayan imkansız vətəndaşlar üçün təqaüdüm hesabına oğlumun adını yaşatmaq məqsədilə xeyriyyə bulağı tikdirmək istəyirəm.

Bunun üçün bəlkə də yüz dəfə "Akkord Sement Zavodu"na getmişəm. Zavodun İdarə Heyətinin sədri Vüqar Süleymanova da yazılı müraciət etmişəm. Nə məni qəbul edən oldu, nə də dərdimi dinləyən. 5 nəfər polisi də qoyublar zavodun qarşısına, imkan vermirlər ki, insanlar sözünü desin. Kənd camaatına məxsus olan suyu vermirlər. İnsanlar məcbur olub pul ödəyir.

Bu məsələnin həllini tapması üçün Milli Məclisin sədri Sahibə Qafarova, Milli Məclisin Aparat rəhbəri Səfa Mirzəyev və millət vəkili Səməd Seyidova müraciət edirəm. Xahiş edirəm ki, problemin həlli üçün aidiyyəti orqanlara müraciət edəsiz və bu gün Daş Salahlı kəndində "Dəmyə" ərazisində yaşayan imkansız vətəndaşların dərdinə şərik olasınız".

**Yeganə Bayramova**

## Vaksinin tətbiqinə müsbət yanaşmaq lazımdır

Allergik reaksiyası olan şəxslər üçün də bunun təhlükəsi yoxdur



**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və GAVI (Global Alliance for Vaccines) təşkilatı arasında saziş imzalanıb. Bu barədə TƏBİB-in Xəstəliklərin kontrolu və profilaktikası departamentinin müdiri Yaqut Qarayeva məlumat verib.**

Y.Qarayeva qeyd edib ki, əhalinin 10 faizinə peyvənd vurulması üçün vaksinlər gözlənilir. Onun sözlərinə görə, GAVI tərəfindən Azərbaycana hansı vaksinlərin verilməsi barədə hələlik məlumat yoxdur: "Vaksinlərin vurulması ilk olaraq risk qruplarına şamil olunacaq. Yaxın günlərdə əhaliyə vaksinlər barədə geniş məlumatlar veriləcək. Peyvəndin yarada biləcəyi allergik reaksiya ola bilər. Bundan heç kim sığortalanmayıb. Bu o demək deyil ki, peyvəndlər təhlükəlidir". **Tibb elmləri doktoru, professor Adil Qeybulla da "Şərq"ə açıqlamasında söyləyib ki, allergik reaksiyası olan şəxslərin vaksin vurdurmalarında hansısa təhlükə yoxdur. Həkim bildirib ki, vaksinasiya bütün dünyada tətbiq olunan bir prosesdir:** "İstənilən dərman preparatları, hətta vitaminlər də allergik reaksiyası olan şəxslərdə həssaslıq yarada bilər. Vaksinlərin reaksiyaları cüzi olur. Yəni çox nadir hallarda güclü reaksiyalar, məsələn, qıcolmalar müşahidə oluna bilər. Bunların da tam səbəbi hələ bilinmir. Hesab edirəm ki, xırda allergik reaksiyalar, qızartılar və ağrıların olması təbii haldır".

**Professor vaksinasiya prosesinin tərəfdarı olduğunu diqqətə çatdırıb:** "Hər birimiz uşaq vaxtlarından vaksinlər vurdurmuşuq. Hazırda azyaşlı uşaqlarda heç bir yoluxucu xəstəlik-qızılca, difteriya, quru öskürək və s. yoxdur. Bu xəstəliklərin olmaması da vaksiyansiya hesabınadır. Ona görə də vaksin tətbiqinə müsbət yanaşmaq lazımdır". A.Qeybulla vurğulayıb ki, allergik reaksiyası olan şəxslər nəyə qarşı həssas olduqlarını bilirlər. Bu zaman əlavə tədbirlər görülməlidir: "Məsələn, xəstəyə bir gün öncədən müəyyən dərmanlar vurmaq olar ki, vaksinlərlə bağlı problem yaşanmasın. Vaksinlər pandemiya ilə mübarizədə bir faktordur. Düzdür, onların vurulması pandemiyanın sonu demək deyil. Lakin hər halda bu istiqamətdə mübarizənin aparılması üçün mühüm addım hesab olunur".

**Yeganə Bayramova**

## Bakıda kişi küçədə yıxılaraq ölüb



**Paytaxtın Yasamal rayonunda bədbəxt hadisə baş verib.**

APA-nın xəbərinə görə, rayonun A.M.Şərifzadə küçəsində təxminən 50-55 yaş aralığında olan kişi (şəxsiyyəti dəqiqləşdirilməyib) yolu keçərkən qəflətən yıxılıb. Ərazidə olan sakinlərin müdaxiləsinə baxmayaraq, onun həyatını xilas etmək mümkün olmayıb.

## Yaxın günlərdə Bakıda qar yağmayacaq

2012-ci ildəki kimi şaxtalı proses təkrarlanmayacaq

**"Bakıda yaxın həftələr ərzində qar yağmayacaq". Bu sözləri Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva deyib. O bildirib ki, iqlim dəyişmələri anomal hadisələrdir:**

"Hazırda heç kim deyə bilməz ki, 2012-ci ildəki kimi şaxtalı proses təkrarlanmayacaq. Əgər qar gözlənilsə, 3 gün qabaqcadan proqnozlarımızı əhaliyə çatdıracağıq".

U. Tağıyeva xatırladıb ki, yaxın illərdə- 2012-ci ilin fevral ayında Azərbaycanda qış soyuq keçib:

"Nabrandan Sumqayıta qədər Xəzər dənizinin donması müşahidə olunurdu. Bildirmək istəyirəm ki, etibarlı proqnozlar 3-4 günü əhatə edən proqnozlardır".

# Əsgərin yandırılması beynəlxalq hüquqa meydan oxumaqdır

## Ermənilərin müharibə cinayətləri ən yüksək məhkəmə instansiyalarında təftiş olunmalıdır

Əsir götürülmüş azərbaycanlı hərbi qulluqçunun cəsədi erməni silahlı dəstələri tərəfindən yandırılıb. Bununla bağlı sosial şəbəkə və digər informasiya mənbələrində videolar yayılıb. Azərbaycanda hərbçimizin meyitinin yandırılmasında iştirak edən erməni hərbçiləri barəsində cinayət işi başlanıb.

Bu barədə Azərbaycanın Baş Prokurorluğundan bildirilib. Məlumatda qeyd olunur ki, Baş Prokurorluq və Hərbi Prokurorluq tərəfindən aparılmış təhlil zamanı həmin videogörüntünün reallığı əks etdirməsi müəyyən edilib.

Vurğulanır ki, hazırda cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri həyata keçirilməklə təqsirli şəxslərin müəyyən edilərək mövcud hüquqi mexanizm və beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilməsindən ötrü mümkün olan bütün tədbirlər görülür. Həmçinin, Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistan hüquq-mühafizə orqanlarını analoji addımlar atmaqla beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycan vətəndaşlarına qarşı törədilmiş hərbi cinayətlərlə bağlı ciddi hüquqi təsir tədbirləri görməyə, açıq və ədalətli araşdırma aparmağa və dünya ictimaiyyətini məlumatlandırmağa çağırır.



**Beynəlxalq hüquq və geosiyasət üzrə professor Əmir Əliyev "Şərq"ə deyib ki, erməni vəhşiliyinin beynəlxalq müstəvidə ifşa olunması vacibdir.** O, söyləyib ki, ermənilər törətdiyi vəhşiliklər müharibə cinayətlərinin tərkib elementlərindən biridir: "Meyitlər üzərində təhqiramiz hərəkətlər, yandırılma, müxtəlif işgəncələr qəti qadağandır. 1949-cu il Cenevrə Konvensiyasında bu məsələlər öz əksini tapıb. Əvvəllər də Azərbaycan Respublikası Baş Prokurorluğu ermənilərin törətdiyi vəhşiliklərlə bağlı müvafiq cinayət işi qaldırıb. Bu da onların tərkib hissələrindən biridir.

Artıq gələcəkdə beynəlxalq qurumlar qarşısında məhkəmə sisteminin təşkil edilməsi ilə bağlı ölkəmizin tələbləri olacaq. Onsuz da Ermənistan açıq şəkildə müharibə cinayətlərini edir. Əlbəttə, bütün bunlar beynəlxalq hüquqa ziddir. Azərbaycan əsgərinin meyitini yandıraraq sosial şəbəkələrdə yayıblar. Bu, beynəlxalq humanitar hüquq normalarına meydan oxumaqdır.

Baş Prokurorluq tərəfindən faktlar yığılaraq müvafiq cinayət işi qaldırılıbsa, dövlətimiz beynəlxalq qurumlar qarşısında bu məsələni qaldıracaq".

**Yeganə Bayramova**

# "Şuşanı Yasamalın gününə salmayaq"

## Tanınmış memar Qarabağın quruculuğuna kömək etmək istəyir

İşğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma tədbirləri ilə əlaqədar Şuşa şəhərində qiymətləndirmə və inventarlaşdırma işlərinə başlanılıb. Bu o deməkdir ki, 30 il ərzində düşmənin xarabalığa çevirdiyi Qarabağ bölgəsi ən qısa zamanda yenidən füsunkar görünüşünə qovuşacaq. Qarabağın incisi sayılan Şuşa şəhərinin bərpasına isə xüsusi önəm verilir.



"Azərbaycanda fəhləlik edənlər çoxdur. İşçi gücünün hesabına 6 ay ərzində Qarabağın əsas bölgələrini zəruri yaşayış binaları ilə təmin etmək olar"

Çünki Şuşa əcdadlarımızın yaratdığı canlı abidə, tariximizin, mədəniyyətimizin, incəsənətimizin və elmimizin əhəmiyyətli hissəsini özündə cəmləşdirən vahid muzeydir. Əfsuslar olsun ki, cənnətməkan diyarımız 28 il müddətində düşmən tapdağı altında baxımsız hala düşüb. Mədəniyyətdən bixəbər barbarlar burada əsl vandalizm törədiblər. Milli sərvətimiz olan tarixi-dini abidələrimiz dağıdılıb, təhqir olunub, məscidlərimizdə mal-qara, donuz saxlanılıb. Artıq Şuşamız azaddır və öz sahibinin əlindədir. Hazırda işçi qrupunun qarşısında duran əhəmiyyətli vəzifələrdən biri Şuşa şəhərinin bütövlükdə ərazi və şəhərsalma vəziyyətinin, tarixi, mədəni və dini abidələrin durumunun, binaların arxitektura görünüşünün, infrastrukturun dəyərləndirilməsi ilə bağlı təkliflərin hazırlanmasıdır. Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə keçirilən müşavirədə Şuşa şəhərinin baş planının hazırlanma mərhələsində olduğunu dedi. Bildirdi ki, Şuşa şəhərinə göndərilən böyük qrup çərçivəsində şəhərsalma üzrə mütəxəssislər işləyir: "Şuşa şəhərinin ortofoto şəkli çəkilib və topoqrafiya işləri davam etdirilib. Bütün planlar hazırdır və yaxın günlərdə təqdim olunacaq". Prezident isə vurğuladı ki, Şuşada yaşayış fondunun, tarixi abidələrin təftişi aparılmalı, vurulmuş ziyan dəqiq hesablanmalıdır: "Biz Şuşa şəhərinin restavrasiyasına başlamalıyıq. Ancaq yenə də vaxt itirmədən, eyni zamanda, tələsmədən Şuşanın ilkin siması, tarixi siması bərpa edilməlidir". Mütəxəssislər də hesab edirlər ki, Qarabağ rayonlarında şəhərsalma zamanı həm tarixi-milli dəyərlər qorunmalı, həm də müasirlik əks olunmalıdır.

Şuşa şəhərinin, ümumiyyətlə, işğaldan azad edilmiş torpaqlarımızda bərpa işlərinin aparılması ilə bağlı fikirlərini "Şərq"ə bölüşən Müstəqil Memarlar Assosiasiyasının rəhbəri Zemfira Budaqova böyük məmnunluq və həvəslə Qarabağın yenidən qurulması prosesində iştirak etməyə hazır olduğunu söyləyib. Tanınmış memar deyib ki, işğaldan azad olunmuş torpaqlarımızda şəhərsalma işi ilə bu sahəni dərindən bilən peşəkarların, təcrübəli mütəxəssislərin iştirakı zəruridir: "Çox istərdim ki, Qarabağda quruculuq planları hazırlayan memarların tərkibində mən də yer alım. Əsas ixtisasım şəhərsalmadır. Mətbuat vasitəsi ilə cənab Prezidentimizə müraciət ünvanlayıram və xahiş edirəm ki, memar kimi prosesə qoşulmağıma şərait yaradılsın. İllər öncə Bakı şəhəri ilə bağlı 26 təklif hazırlamışdım və layihələrim Prezidentin müşaviri vasitəsi ilə dövlət başçısına çatdırılmışdı. Mənə verilən məlumata görə, ölkə rəhbəri təklifləri bəyənmişdi. Bu işə də öz töhfəmi vermək arzusundayam. İşğaldan azad olunmuş bütün şəhərlərimizdə quruculuq bölgənin tarixinə uyğun aparılmalı, təbii görünüş pozulmadan müasir tikililər inşa edilməlidir. Ən əsası isə insanların tələbatına uyğun sayda və tərzdə binalar tikilməlidir. Bütün rayonlarımızın mərkəzi şəhər statusuna uyğun şəkildə yenidən qurulmalıdır. Əlbəttə, Şuşanın özünəməxsus yeri, önəmi var. Qarabağın incisi adlandırdığımız Şuşa qədimliyi, milli-mənəvi dəyərləri, incəsənət mərkəzi olduğu üçün orada şəhərsalma planlı və düşünülmüş formada həyata keçirilməlidir. Mən Azərbaycanın gözü -Şuşa şəhərində yenidənqurma işinə öz töhfəmi vermək istəyirəm. Şuşada tikilən binalar müasir üslubda olsa da, qədimliyi əks etdirən ornamentlərlə zəngin olmalıdır".

**Memarın fikrincə, Qarabağda "novostroyka" dediyimiz çoxmərtəbəli binaların, yaxud eyni tipli beşmərtəbəli evlərin yeri yoxdur:** "Şəhərsalma və bərpa işləri elə aparılmalıdır ki, Şuşa göz oxşayan təbii mənzərəsi, qədimliyi və müasirliyi ilə dünyanın da diqqətini çəksin, bölgəyə turistlər cəlb olunsun, iqtisadi faydalar gətirsin. Qarabağ dünyanın marağındadır və bu diqqətin itməməsi üçün regionu cəlbedici etməliyik. Məsələn, Suqovuşanda elə evlər tikilməlidir ki, bölgəyə bənzərliyi olsun. Bəzilərinə təəccüblü gələr ki, bina əraziyə necə bənzəyər?! İllər öncə dəniz kənarında istirahət zonası üçün layihə təqdim etmişdim. Layihədə binaların dalğavari tikintisi nəzərdə tutulmuşdu. Eyvanlar da bir-birini məsafə və hündürlük baxımından elə əvəz edirdi ki, kənardan baxanda dalğalı görünürdü. Sanki gözümüzdə rəqs edirdi. Əfsuslar olsun ki, layihəmi reallaşdırmadılar. Qarabağın tarixi məkanlarında tikilən binalar, yaşayış və qeyri-yaşayış obyektləri mühitə, ətrafdakı qədim məbədlərə zidd olmamalıdır. Eyni tipli binalara gəldikdə isə bir-iki binanın oxşar olmasında problem yoxdur. Amma ucdantutma bütün tikililəri eyni formada inşa etmək yaxşı görünməz. Şuşanı Yasamalın gününə salmamalıyıq".

**Z.Budaqova Qarabağda yenidənqurma prosesinin nə qədər davam edəcəyini də deyib:** "Tikintini daha tez başa çatdırmaq işçi qüvvəsinin sayından asılıdır. İşçilər nə qədər çox olarsa, binaları qısa zamanda inşa etmək mümkündür. Azərbaycanda fəhləlik edənlər çoxdur. Sizi inandırıram, işçi gücünün hesabına 6 ay ərzində Qarabağın əsas bölgələrini zəruri yaşayış binaları ilə təmin etmək olar. Bakıda adi metrostansiyanın tikintisi lazımi sayda işçi cəlb olunmadığı üçün illərlə davam edir. Qarabağda ilk növbədə kommunikasiyalar qurulmalı, işıq, su, qaz, telefon xətləri, yollar çəkilməli və bu zaman bölgədə yaşayan insanların sayı nəzərə alınmalıdır. Üç-beş binanın ehtiyacı üçün kanalizasiya qurulur, 2-3 ildən sonra yaşayış binalarının sayı 20-yə çatır. Nəticədə problem yaranır, infrastruktur sökülür. Qarabağda bunu etməməliyik. Eskiz layihələr çəkilməli, tikililərin yeri müəyyən olunaraq kommunikasiya qurulmalıdır. Binaların forması, xarici görünüşü sonranın işidir".

**İsmayıl Qocayev**



## Şagirdlərin yerdəyişməsi müvəqqəti dayandırılır

**Valideynlər (qanuni nümayəndə) qeyd olunan tarixədək övladlarının şəxsi işlərini əvvəl oxuduqları məktəbdən götürərək yerdəyişmə etmək üçün seçdikləri məktəbə təqdim etməlidirlər.**

Dünən saat 18:00-dan etibarən şagirdlərin elektron yerdəyişməsi üzrə sorğuların qəbulu müvəqqəti olaraq dayandırılacaq. Sputnik Azərbaycan-ın məlumatına görə, buna səbəb II yarımil üzrə siniflərin komplektləşdirilməsi ilə bağlıdır. Portalda mövcud sorğuların tamamlanması prosesi 13 yanvar saat 18:00-dək davam edəcək.

Valideynlər (qanuni nümayəndə) qeyd olunan tarixədək övladlarının şəxsi işlərini əvvəl oxuduqları məktəbdən götürərək yerdəyişmə etmək üçün seçdikləri məktəbə təqdim etməlidirlər. Elektron yerdəyişmə prosesinin yenidən başlanacağı tarix barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

# Dünyada baş verənlər bizə də gəlib çatdı...

## Azərbaycanda "Facebook" istifadəçilərinin sayı azalır

2020-ci ilin dekabrında Azərbaycanın sosial şəbəkə bazarında "Pinterest" 22,98 faiz payla birinci yerdə qərarlaşıb. Bu barədə "Global Stats" statistika mərkəzinə istinadən məlumat verir.

İkinci yerdə 20,5 faiz göstərici ilə "Facebook" olub. Bu şəbəkənin Azərbaycanda aktiv istifadəçilərinin sayı noyabrla müqayisədə 2,76 faiz azalıb. "Instagram" sosial şəbəkəsinin istifadəçilərinin sayı 0,25 faiz artaraq 24,69 faiz təşkil edib. "YouTube" istifadəçilərinin fəallığı bir ay ərzində 5,62 faiz artaraq 24,85 faizə bərabər olub. "Twitter"in payı 5,58 faiz, "VKontakte" sosial şəbəkəsinin payı 0,54 faiz təşkil edib.

Məsələyə münasibət bildirən internet-media eksperti Səbuhi Abbasov "Şərq"ə açıqlamasında vurğulayıb ki, son zamanlar "Facebook" müxtəlif xoşagəlməz olaylarda müəyyən bir texniki alət kimi istifadə olunurdu. Ekspert əlavə edib ki, ABŞ Konqresində və Avropa Şurasında "Facebook"un rəhbərliyi ilə saatlarla dinləmələr keçirildi: "Məlum oldu ki, "Facebook" sosial şəbəkəsindən bir çox neqativ məsələlərdə müəyyən bir texniki alət kimi istifadə olunmaqdadır. Eyni zamanda "Facebook"da saxta profillərin sayının kütləvi şəkildə artması və bu səbəbdən də insanların bura daha rahat şəkildə yığılması gələcək üçün təhlükələr törədə bilər. Ümumiyyətlə, bu dinləmələrdən sonra "Facebook" rəhbərliyi məcburən bir neçə qərar qəbul etməli oldu. Həmin qərarlardan biri də saxta profillərin və uzun müddət istifadə olunmayan profillərin deaktiv edilməsi idi. Bilirsiniz ki, qeydiyyatdan keçmiş insanların bəzən bir neçə saxta profilləri olurdu. Ancaq artıq "Facebook"dan qeydiyyatdan keçmək istəyənlər şəxsiyyət vəsiqəsi və ya hər hansı sənəd vasitəsilə profillərini təsdiq etməli olacaqlar. Bütün bu proseslərin fonunda "Facebook"da istifadəçilərin sayının ciddi şəkildə azalması ilə nəticələndi. Azərbaycanda da o cümlədən, istifadəçilərin sayında kifayət qədər ciddi azalmalar oldu. Təbii ki, bu tendensiya bütün dünya üzrə var".




Saxta profillərin deaktiv edilməsindən sonra belə bir vəziyyətin yaranacağı gözlənilən idi

**Ekspert qeyd edib ki, bu prosesin davamı kimi "Facebook"da fəaliyyət göstərən bəzi səhifələrin istifadəçilərinin bəyənmə sayında da ciddi azalmalar müşahidə olundu:** "Bundan başqa "Facebook" daha radikal addımlar ataraq, adi elementar bir neçə nəfərin şikayəti əsasında bir çox profilləri, eyni zamanda səhifələri kütləvi şəkildə bloklamağa başladı. Daha sonra bir sıra profil və səhifələrin funksiyalarını məhdudlaşdırılması prosesi həyata keçirildi. Bütün bunlar birmənalı şəkildə" Facebook" istifadəçilərinin sayının kütləvi şəkildə azalması ilə nəticələndi. Amma deyərdim ki, bu günləri yenə də "Facebook" digər sosial şəbəkələrlə müqayisədə liderdir. Çünki istifadəçilərin sayı hələ də üstünlük təşkil edir".

**Aynurə Pənahqızı**



# Dərd bir deyil, iki deyil...

## Xroniki yorğunluq həm də insanlarda aclıq hissi yaradır

*Gündəlik iş rejimi, şəhər həyatı, tıxaclar, sosial problemlər insanların daha tez yorulmasına səbəb olur. Belə hallar xroniki yorğunluqdur və yüngül istirahətlə keçib gedir. Ümumilikdə, yorğunluğun səbəbi çox ola bilər. Bunlara cəmiyyətdəki problemləri də daxil etmək mümkündür.*

Araşdırmalara görə, insan səhhətində olan bəzi problemlər tez-tez yorğunluq, eyni zamanda aclıq hissi yaradır. Qan çatışmazlığı, müxtəlif infeksiyalar, qaraciyər, ürək və böyrək çatışmazlıqları, orqanizmdə vitamin və mineralın yetərincə olmaması, metobolik pozulmalar, hormonal pozğunluqlar kimi ciddi problemlər də yorğunluğun ilk əlamətləridir.

**Dietoloq Nərgiz Nəzirova "Şərq"ə bildirib ki, gün ərzində qanda şəkərin yüksək miqdarı qlükozanın hüceyrələrə daxil olmasını əngəlləyir.** Nəticədə orqanizm yetəri qədər enerji

### Ətrafımızdakı problemlər beyinə yetəri qədər qida getməsinidə əngəlləyir

almır və yenidən qida tələb edir. Şəkər asılılığının əlamətlərini sadalayan dietoloq xroniki yorğunluğun da bununla bağlı ola biləcəyini qeyd edib: "Qanda şəkərin yüksək miqdarı nəticəsində orqanizm qlükozanı düzgün mənimsəyə bilmir. Enerji çatmır və qeyri-düzgün sərf olunur, hüceyrələr yetəri qədər qidalanmır. Bu da xroniki yorğunluğun meydana gəlməsinə yol açır.

Düzgün iş üçün beyinə lazımi qədər şəkərin ehtiyac duyduğunu bilirik, amma onun artıq miqdarı beyinə yetəri qədər qida getməsini əngəlləyir. Nəticədə diqqət və düşüncə qabiliyyəti azalır, konsentrasiya problemləri yaranır.

Qanda şəkərin səviyyəsinin yuxarı olması xrom mineralının mənimsənilməsinə mane olur, isə əhval-ruhiyyəni təmin edir. Xromsuz insulin də düzgün işləyə bilmir, nəticədə hər şeydən qıcıqlanma, əhval-ruhiyyənin aşağı olması kimi əlamətlər özünü göstərməyə başlayır.

Xüsusən də sidikçıxarıcı yolların tez-tez infeksiyaya tutulması da şəkər asılılığının əlamətləri arasındadır. Bu problemə kişilərdə də, qadınlarda da rast gəlinə bilər.

Qanda şəkərin yüksək miqdarı maya göbələkləri və bakteriyalar üçün yaxşı şərait yaradır. Özündə problem hiss edənlər qazlı içkilərin, şirniyyatın miqdarını azaltmalıdır".

**Yeganə Bayramova**



# May ayına qədər pandemiya nəzarət altına alınacaq

### "Dünya tədricən əvvəlki vəziyyətinə qayıdacaq"

**COVID-19 Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan olunandan bəri bütün ölkələr bu virusla mübarizəyə qalxıb və savaş aparır.**

Dünya tibbi, müxtəlif ölkələrin elm adamları insanlıq üçün yeni olan bu bəlanı "susdurmaq" naminə səfərbər olub. Artıq xeyli vaxtdır ki, bəzi ölkə və şirkətlərin istehsal etdiyi peyvəndlər barədə müsbət fikirlər səslənməkdədir. Hətta bir neçə ölkədə əhalinin peyvəndlənməsinə başlanıldığı da bildirilir. Bəs hansı ölkələrin peyvəndlərinin qoruyuculuğu daha yüksəkdir?

**Azərbaycanın məşhur radioloqu Rasim Bayramov "Şərq"ə açıqlamasında bildirib ki, may ayına qədər pandemiya kontrol altına alınacaq və may ayından etibarən dünya tədricən əvvəlki vəziyyətinə qayıdacaq:** "Çinin "Sinovac" və Oksfordun "AstraZeneka" peyvəndlərinin qoruyuculuğu yüksək nəticə verdi. Pfizer/BioNTech peyvəndinin İngiltərə və Cənubi Afrikada görülən B.1.1.7 və B.1.351 mutasiyalarına qarşı da qoruyucu olduğu bildirilib. Artıq bundan sonra dünyada sürətli peyvəndlənmə prosesi olacaq".

**Aynurə**



# Dərindən nəfəs ala bilərik

### Yoluxma sayı azaldığına görə ayın sonundan müəyyən yumşalmalar mümkün görünür

*Ölkəmizdə COVİD-19 infeksiyasına 532 yeni yoluxma faktı qeydə alınıb. 1879 nəfər isə sağalaraq evə buraxılıb. Yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar son sutka ərzində 8383, ümumilikdə isə 2,250,291 test aparılıb.*

Rəqəmlərdən göründüyü kimi artıq Azərbaycan kritik dönəmi geridə qoyub. Sərt karantin rejimi tətbiq edildiyi gündən etibarən müsbət dinamika müşahidə olunur və bu hal bir aydır ki, davam edir.

Yoluxma sayının nəzarətə alınması və aktiv xəstə sayının azalması insanları sərt karantin rejiminin bitməsinə dair ümidləndirir.

Ölkəmizdə koronavirus infeksiyası ilə bağlı vəziyyəti şərh edən həkim-allerqoloq Şahvələd Məmmədov "Şərq"ə açıqlamasında bildirib ki, yanvar ayının 18-dən sonra müəyyən yumşaldılmalara gedilə bilər: "Son vaxtlar Azərbaycanda yoluxma dinamikasına nəzər yetirəndə müsbətə doğru dəyişim müşahidə edildiyini görürük. Sağalanların sayı yoluxanlara nisbətən 3-4 dəfə artıb. Ölkəmizdə vəziyyətin yaxşıya doğru dəyişməsində koronavirus infeksiyası ilə bağlı görülən işlərin rolu olduqca vacibdir. Artıq küçədə olan insanların hamısı qoruyucu vasitələrdən istifadə edir. Maska taxmayan birinə rast gəlmək demək olar ki, mümkün deyil. Vətəndaşlarımız tətbiq edilən qayda-qanunlara çox ciddi şəkildə riayət edirlər. Riskli günlər daha geridə qalıb. İnsanların məsuliyyətli davranması nəticəsində yoluxma sayı əvvəlkinə nisbətən aşağı düşüb. Düşünürəm ki, müsbət tendensiya davam edərsə bəzi qadağalar ləğv oluna bilər".

**Ş.Məmmədov ölkəmizdə aparılacaq vaksinasiya məsələsinə də toxunub:** "Avropa ölkələrində bu vaksinin adətən risk qrupuna daxil olan insanlara vurulması nəzərdə tutulub. Azərbaycanda isə dünyanın əksər ölkələrində olduğu kimi vaksinin tətbiq edilməsində ilk olaraq tibb işçilərinə üstünlük veriləcək. Növbəti sırada təhsil işçiləri yer alır. Bunun da səbəbi onların insanlarla daha çox əlaqədə olmasıdır".

**Aytac Ali**

# Koronavirus uşaqlarda əsasən halsızlıqla müşahidə olunur

### Onlar qollarını qaldırmaqda belə çətinlik çəkirlər



*"Koronavirusun ilk dalğalarında uşaqlar ona yoluxsa da ağırlaşmırdı, xəstəliyi çox yüngül keçirirdi. Bəzən isə əksəriyyəti simptomsuz olurdu. Lakin bu dalğada artıq koronavirus uşaqlara da toxunmağa başlayıb".*

"Əgər evdə COVİD-19 infeksiyası olubsa, yaxud onun ən kiçik bir əlaməti kimdəsə olubsa, məsələn, dadbilmənin itməsi, o zaman evdə uşaq daxil hər kəsin yoluxduğunu bilin"

**Bu sözləri tanınmış pediatr Aytən İsmayılzadə "Şərq"ə açıqlamasında deyib. Onun sözlərinə görə, son iki həftədə qəbul etdiyi uşaqlar arasında 5 nəfərində COVİD-19 ağırlaşması olub:** "Onlarda 5 gün ərzində hərarət çox yüksək 39-40, çox halsızlıq, iştahsızlıq, qarında ağrılar, qusma, ishal, dəridə gedib gələn qızartılar, gözlərdə qızartı (ikisi qan dolmuş kimi), boyun limfa düyünlərinin böyüməsi, ağrılı olması (limfadenit) analizlərdə CRP 150- 350-dən yuxarı (norma 5-ə kimi), EÇS 60-80 (norma 5-15) leykositlər 20000 civarında, neytrofilyoz göründü. Bəli, bu əlamətlər digər virus qrip infeksiyalarında da ola bilir. Amma biz başqa infeksiyanın epidemiyasını yaşayırıq. Həm də bu virus mutasiyaya uğrayıb, əvvəl etmədiyini sonra edə bilir. Əgər evdə COVİD-19 infeksiyası olubsa, yaxud onun ən kiçik bir əlaməti kimdəsə olubsa, məsələn, dadbilmənin itməsi, o zaman evdə uşaq daxil hər kəsin yoluxduğunu bilin. Amma uşaqlara antiviral dərmanları verə bilmərik. Çünki favipiravir uşaq orqanizmi üçün ağırdı, arbidol isə virus üçün zəifdir".

**Həkim qeyd edib ki, hər kəs artıq sağaldı dediyində bir uşağın hərarətinin yüksək rəqəmlərə qalxması məhz onun ağırlaşması ola bilər:** "Qeyd edim ki, koronavirus immuniteti çox yoran, tükəndirən bir gücə malikdir. İmmunitet zəiflədiyində, əlbəttə, bakteriyalar aktivləşməsi baş verəcək. Koronavirusda bu proses sürətlə baş verir. Mütləq CRP və qan ümumi analizini verməK lazımdır. Yəni evdə koronavirus olduğu halda uşaqda olan yüksək hərarəti digər virus infeksiyaları kimi üç gün gözləmədən araşdırmaq lazımdır. Baş verən ağırlaşma əslində sadəcə bakterial aktivləşmə ilə bağlı olmur. Multiorqan iltihab sindromu baş verə bilir. Prosesə ürək, böyrəklər, ağciyərlər, qaraciyər, mədəaltı vəz də cəlb oluna bilir. Qeyd edim ki, uşaqlarda COVİD-19 ağırlaşması ilə görülən halsızlıq sadəcə kefsizlik deyil və qolunu qaldırmaqda belə çətinlik çəkirlər. Və bu halsızlıq ishal, qusma olmasa da olur. İştahsızlıq isə valideynlərin həmişə şikayət etdiyi iştahsızlıq olmur. Ona görə də valideynlər son zamanlar daha diqqətli olmalı və dərhal həkimə müraciət etməlidirlər ".

**Aynurə Pənahqızı**

# Daha təhlükəsizliyə zəmanət yoxdur




## Vatsap özünü tamamilə feysbuka bağlayır

8 fevralda qüvvəyə minəcək yeni qərara əsasən, vatsap sosial şəbəkəsi öz istifadəçi məlumatlarını feysbuk ilə paylaşmaq üçün istifadəçilərindən icazə istəyəcək...

Lazımi təsdiq verməyən istifadəçilər vatsapdan istifadə edə bilməyəcək. Məlumat şirkətin digər törəmə şirkətləri ilə yanaşı, feysbuk ilə də paylaşılacaq.

Vatsap tərəfindən verilən açıqlamaya görə, yeni istifadə şərtləri və gizlilik prinsipləri 8 fevral 2021-ci il tarixindən etibarən qüvvəyə minəcək. Əvvəlcə istifadəçilər vatsapda bir bildirişlə xəbərdar ediləcək və onlardan verilən şərtləri təsdiqləmələri istəniləcək, alternativ bir seçimi olmayacaq.

Vatsapın veb saytındakı istifadə şərtlərinə görə, istifadəçi məlumatları feysbukla bərabər onun qurduğu digər şirkətlərlə də paylaşılacaqdır.

Mövzu ilə bağlı İnternet Kommunikasiya Texnologiyaları üzrə ekspert, Gənclik Akademiyası İctimai Birliyinin sədri Kazım Məmmədov "Şərq"ə açıqlama verib: "Əvvəllər vatsapın təhlükəsizlik qaydaları var idi və o, sosial şəbəkələr içərisində ən təhlükəsiz xidmət vasitəsi idi.

İndi isə istifadəçilərinin məlumatlarını feysbuk və onun qurduğu digər şəbəkələrlə paylaşması bu təhlükəsizlik qaydalarını minimuma endirir.

Əlbəttə, feysbukun da öz təhlükəsizlik prinsipləri mövcuddur. Lakin istifadəçi məlumatlarının digər şirkətlərlə paylaşılması vatsap istifadəçilərini bir az təşvişə salır.

Həmçinin, bu qərar feysbuku olan vatsap istifadəçilərini bir növ məcbur etmək kimi məna daşıyır.

Əslində, elə əvvəldən vatsapda feysbukun "izlərini" görmək mümkün idi. İndi isə vatsap demək olar ki, özünü tamamilə feysbuka bağlayır.

Nəzərə alsaq ki, fevral ayının 8-nə hələ bir ay var, düşünürəm ki, vatsap istifadəçilərini düşünərək bu addımı atmaqdan imtina edib verdiyi qərarı ləğv edəcək".

**Ağarza Elçinoğlu**

## Dünyanın ən təhlükəsiz hava yolları şirkətlərinin reytinqi açıqlanıb

**Hava yollarının reytinqinin siyahısını tərtib edən, bu məqsədlə 2021-ci ildə 385 şirkəti nəzərdən keçirən "AirlineRatings.com" portalının araşdırmasına görə, dünyanın 20 ən təhlükəsiz hava yolları şirkətlərinin adları açıqlanıb.**

AZƏRTAC xəbər verir ki, reytinq tərtib edilərkən qəzaların sayı, hava gəmilərinin standartları, uçuşun rahatlığı, innovasiyalar və pilotların təcrübəsi nəzərə alınıb. Belə ki, dünyanın ən təhlükəsiz hava yolları şirkəti əvvəlki kimi, Avstraliyanın "Qantas" hava yolları seçilib. Siyahının əsas təhlükəsiz və yeniliyin həyata keçirməsi baxımından hava yollarının iyirmiliyinə "Qatar Airways", "Air New Zealand", "Singapore Airlines", "Emirates, EVA Air", "Etihad Airways", "Alaska Airlines", "Cathay Pacific Airways", "British Airways", "Virgin Australia/Virgin Atlantic", "Hawaiian Airlines", "Southwest Airlines", "Delta Airlines", "American Airlines", "SAS", "Finnair", "Lufthansa", "KLM" və "United Airlines" daxil edilib.

# "YAŞAT" Fonduna

## 8110 SMS vasitəsilə ianə etmək imkanı yaradılıb

**Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən yaradılan "YAŞAT" Fonduna SMS vasitəsilə ianə etmək imkanı yaradılıb. Bütün mobil operatorlardan 8110 qısa nömrəsinə SMS göndərməklə Fonda 1 AZN-dən 50 AZN-dək ianə etmək mümkündür. SMS-in mətnində 1, 3, 5, 10, 20, 50 rəqəmlərini yazmaqla müvafiq olaraq, 1AZN, 3 AZN, 5 AZN, 10 AZN, 20 AZN və 50 AZN ianə etmək olar.**




SMS-si göndərdikdən sonra vətəndaşa ödənişin statusu ilə bağlı cavab gəlir.

**Uğurlu ödəniş edildikdə** - Hörmətli abunəçi, siz "YAŞAT" Fonduna XX AZN uğurla ianə etdiniz. Qələbəni bizə yaşadanları birlikdə Yaşadaq! Digər xidmətlərdən rahatlıqla istifadə etmək üçün zəhmət olmasa balansınızı artırın.

**Balansda kifayət qədər məbləğ olmadıqda** - Hörmətli abunəçi, balansınızda kifayət qədər məbləğ yoxdur. "YAŞAT" Fonduna ianə etmək üçün balansınızı artırmağınızı xahiş edirik.

**Sistemdə təkmilləşdirmə işləri aparıldıqda** və ya problem olduqda - Hörmətli abunəçi, sistemdə təkmilləşdirmə isləri aparıldığından "YAŞAT" Fonduna ödənişiniz həyata keçmədi. Daha sonra təkrar yoxlamağınız xahiş olunur.

**Düzgün ödəniş məbləği seçilmədikdə** - Hörmətli abunəçi, göndərdiyiniz kod yanlışdır. "YAŞAT" Fonduna ianə etmək üçün 1, 3, 5, 10, 20, 50 məbləğlərdən birini seçməklə ödəniş edə bilərsiniz.

**Korporativ abunəçi olduqda** - Hörmətli abunəçi, siz korporativ abonent olduğunuzdan "YAŞAT" Fonduna ödənişiniz həyata keçmədi. Fərdi abunə nömrəsindən istifadə etməyiniz tövsiyə olunur.

Bununla yanaşı, "YAŞAT" Fonduna onlayn formatda "ASAN Ödəniş" vasitəsilə dəstək olmaq şəraiti yaradılıb. Bunun üçün vətəndaşlar asanpay.az portalında "Ən populyar ödənişlər" bölməsində ilk sırada olan "YAŞAT" Fondu bölməsini seçməklə ödənişi həyata keçirə bilərlər.

Həmçinin Fonda bank hesabları və ödəmə terminalları vasitəsilə də ianə etmək mümkündür.

Bank rekvizitləri ilə aşağıdakı keçiddən tanış ola bilərsiniz: http://vxsida.az/az/annouces/1493

SMS ianə ilə bağlı daha ətraflı məlumat üçün təlimat videosu: https://youtu.be/YN4yCBXMY40




# "YAŞAT" Fonduna

## 8110 SMS vasitəsilə ianə etmək imkanı yaradılıb

**Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən yaradılan "YAŞAT" Fonduna SMS vasitəsilə ianə etmək imkanı yaradılıb.**

Bütün mobil operatorlardan 8110 qısa nömrəsinə SMS göndərməklə Fonda 1 AZN-dən 50 AZN-dək ianə etmək mümkündür. SMS-in mətnində 1, 3, 5, 10, 20, 50 rəqəmlərini yazmaqla müvafiq olaraq, 1 AZN, 3 AZN, 5 AZN, 10 AZN, 20 AZN və 50 AZN ianə etmək olar. SMS-si göndərdikdən sonra vətəndaşa ödənişin statusu ilə bağlı cavab gəlir.

Uğurlu ödəniş edildikdə - Hörmətli abunəçi, siz "YAŞAT" Fonduna XX AZN uğurla ianə etdiniz. Qələbəni bizə yaşadanları birlikdə Yaşadaq! Digər xidmətlərdən rahatlıqla istifadə etmək üçün zəhmət olmasa balansınızı artırın.

Balansda kifayət qədər məbləğ olmadıqda - Hörmətli abunəçi, balansınızda kifayət qədər məbləğ yoxdur. "YAŞAT" Fonduna ianə etmək üçün balansınızı artırmağınızı xahiş edirik.

Sistemdə təkmilləşdirmə işləri aparıldıqda və ya problem olduqda - Hörmətli abunəçi, sistemdə təkmilləşdirmə isləri aparıldığından "YAŞAT" Fonduna ödənişiniz həyata keçmədi. Daha sonra təkrar yoxlamağınız xahiş olunur.

Düzgün ödəniş məbləği seçilmədikdə - Hörmətli abunəçi, göndərdiyiniz kod yanlışdır. "YAŞAT" Fonduna ianə etmək üçün 1, 3, 5, 10, 20, 50 məbləğlərdən birini seçməklə ödəniş edə bilərsiniz.

Korporativ abunəçi olduqda - Hörmətli abunəçi, siz korporativ müştəri olduğunuzdan "YAŞAT" Fonduna ödənişiniz həyata keçmədi. Fərdi abunə nömrəsindən istifadə etməyiniz tövsiyə olunur.

Bununla yanaşı, "YAŞAT" Fonduna onlayn formatda "ASAN Ödəniş" vasitəsilə dəstək olmaq şəraiti yaradılıb. Bunun üçün vətəndaşlar asanpay.az portalında "Ən populyar ödənişlər" bölməsində ilk sırada olan "YAŞAT" Fondu bölməsini seçməklə ödənişi həyata keçirə bilərlər.

Fonda bank hesabları və ödəmə terminalları vasitəsilə də ianə etmək mümkündür. Bank rekvizitləri ilə aşağıdakı keçiddən tanış ola bilərsiniz: http://vxsida.az/az/annouces/1493 SMS ianə ilə bağlı daha ətraflı məlumat üçün təlimat videosu: https://youtu.be/YN4yCBXMY40

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Mələhət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 40




## Bekhemlərin 73 milyonluq səyahəti tənqid olunub

**Koronavirusun mutasiyaya uğrayan növünün meydana gəldiyi Böyük Britaniyada karantin qaydaları hər gün daha da sərtləşdirilir. Buna baxmayaraq Bekhemlər ailəsi istirahətindən qalmayıb.**

Axşam.az xarici KİV-ə istinadən bildirir ki, onlar Yeni ili qarşılamaq üçün şəxsi təyyarə ilə Mayamiyə yollanıblar.

Bruklinin nişanlısı Nikola Peltzin də onlara qatılıb. ailənin səyahəti 32 milyon funt-sterlinqə *(yəni 73 milyon 769 manata)* başa gəlib. Bekhemlər ailəsinin bahalı səyahəti tənqidlərə tuş gəlib. İnsanlar onları pandemiyada səyahət etdikləri üçün qınayıblar.

## Yeni qərar qəbul edilib

### Bu ölkədə virusdan ölənlər yandırılacaq



**Şri-Lanka hökuməti uzun müddətdir müzakirə olunan yeni növ koronavirusdan ölənlərin cəsədlərini dinindən asılı olmayaraq yandırılması barədə qərar qəbul edib.**

Milli.Az xəbər verir ki, Tibb Dərnəyi Heyəti (CCPSL) tərəfindən hazırlanan hesabata uyğun olaraq, dindən asılı olmayaraq yeni növ koronavirusdan ölənlərin cəsədlərini krematoriyalarda yandırmağa qərar verdiklərini söyləyiblər. Ölkənin Səhiyyə naziri Uanniarachchi, məcburi krematoriya tətbiqinin yalnız sağlamlıq səbəbi ilə həyata keçirilməsini bildirib. Lakin Şri-Lankada zorla yandırılmaya qarşı nümayişlərə rəhbərlik edən keçmiş Sosial İnkişaf naziri və millət vəkili Seyid Əli Zahir Mövlana, "Twitter" hesabında hökumətin bu qərarına reaksiya verib. "Səhiyyə nazirinin parlamenti səhv məlumatlandırdığı açıqdır. Hökumətin verdiyi qərar bilik deyil, siyasi və irqçi səbəblərdəndir", - deyə Seyid Əli Zahir qiymətləndirmə aparıb. /medicina.az

## Bəyaz bir reklamdan 6 milyon qazanacaq



**Məşhur komediya ustası Bəyazıt Öztürk yeni reklama çəkilib.**

Aktyor Yen ili böyük qazancla qarşılayıb. Bir əşya firması ilə razılaşan Bəyazıtın 6 milyon lirə (1 milyon 390 min manat) alacağı deyilir.

Reklamın ssenarisinə əsasən aktyora yaşlı kişi qrimi edilib. O, olduğundan daha qoca görünüb. Onun yeni imici "milyonluq obraz" adlandırılıb.

## Berendən sonra Merve də müğənnilik edəcək



**Həyat yoldaşı Murat Dalkılıçdan ayrıldıqdan sonra bir çox problemlər yaşayan və ekranlardan uzaq qalan Merve Boluğur yenidən qayıdır.**

Türkiyə KİV bildirir ki, bir müddət əvvəl açdığı "Youtube" kanalı ilə gündəmə gələn Boluğur bu dəfə müğənniliyə başladığını bildirib.

Bununla bağlı İnstaqram hesabında paylaşım edən aktrisa ilk mahnısının da artıq hazır olduğunu deyib.



# Maska taxan eynəkli adamlar...

## Sabun, diş məcunu, alma karlarına gələcək



**Koronavirusdan qorunmaq üçün maska taxmaq məcburidir. Artıq gündəlik üz maskaları həyatımızın bir parçasına çevrilib. Ancaq gözlük taxanlar üçün maska taxmaq daha çətindir. Çünki eynəyin şüşələri tez-tez nəmlənir.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, maska taxarkən eynək şüşələrinin nəmlənməsinin qarşısını almaq üçün müəyyən həll yolları var. Onlardan birincisi, gözlüyünüzü sabunlu su ilə yuyun və onun qurumasını gözləyin. Sabun eynək şüşəsində xüsusi təbəqə yaradaraq nəmlənmənin qarşısını alacaq. İkincisi, yaxşı təmizlədiyiniz eynəklərinizə qliserin tətbiq edin. Nəticədən çox təəccüblənəcəksiniz. Ən çox sevdiyimiz meyvə olan alma da bu baxımdan çox uğurludur. Almanı eynəklərinizin şüşə hissələrinə sürtməklə artıq duman səbəbindən görünməyən eynəklər bərpa etmək olar. Digər bir tövsiyə olunan üsul isə diş məcunudur. Linzanıza bir az diş məcunu sürtün və sonra linzaları onunla yaxşıca yuyun. Tamamilə quruduqdan və taxdıqdan sonra eynəklərinizdəki dumanın aradan qalxdığının şahidi olacaqsınız. Maskanızın içərisinə kağız dəsmal qoyaraq da, bu işi etmək mümkündür. Bir dəsmalı yarıya qatlayın və maska telinin olduğu hissəyə qoyun, beləliklə, dəsmal maskanızla burnunuz arasında olduğu zaman buxarlanma olmayacaq.

**Aynurə Pənahqızı**

## ÜST: Dünyanın yoxsul əhalisinə tezliklə peyvənd dozaları çatdırılacaq



**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına əsasən, dünyanın yoxsul ölkələri yanvar ayının sonundan fevralın ortalarınadək koronavirusa qarşı peyvənd dozalarının ilk tranşını alacaqlar.**

Koronavirus əleyhinə peyvənd təşəbbüsü (COVAX) çərçivəsində əldə edilən peyvənd dozaları qarşıdakı həftələr ərzində paylanmalıdır. Bildirilib ki, COVAX təşəbbüsü çərçivəsində ümumilikdə 2 milyard doza peyvəndin alınması barədə müxtəlif istehsalçılarla razılıq əldə edilib.

*Qeyd edilməlidir ki, GAVI peyvənd alyansının dəstəyi ilə ÜST tərəfindən təsis edilən beynəlxalq COVAX proqramının hədəfi COVID-19 peyvəndlərinin dünyada ədalətli paylanmasını təşkil etməkdir. COVAX-ın məqsədi bu ilin sonunadək bu təşəbbüsə qoşulmuş ölkələrin əhalisinin 20 faizinin vaksinasiyası üçün lazım olan miqdarda peyvənd dozalarının əldə edilməsinə nail olmaqdır. Qeyd edilib ki, dünyanın 92 yoxsul ölkəsi üçün peyvənd dozalarının alınması və çatdırılmasının maliyyələşməsi təmin edilib.*

## Sərdar Ortaç etiraz edib

### "Sevgili demə, həyat yoldaşımdır"



**Türkiyəli müğənni Sərdar Ortaç sevgilisi Seçil Gür ilə görüntülənib.**

S.Ortaç müxbirin "Sevgiliniz Seçil Gür" deyə, sözə başlamasına etiraz edib:

**"Sevgili demə, həyat yoldaşımdır, xanımımdır. Onun nə istədiyi önəmlidir, evlilik istəyirsə, evlənəcəyəm. Mənim üçün sonuncu dayanacaq Seçildir".**

## Türkiyədə Amerika filmi çəkəcəklər



**"Lock", "Stock and Two Smoking" kimi ekran işlərində bir araya gələn aktyor Ceyson Steytem və rejissor Qay Riç yenidən eyni layihədə yer alacaq.**

İkili bu dəfə aksiyon janrlı "Five Eyes" filmi üçün bir araya gəlib.

Verilən məlumatlara əsasən ekran işinin əsas hissəsi Türkiyədə lentə alınacaq. Film əsasən Antalya və Kəmər kimi istirahət zonalarında çəkiləcək. Buna görə də ekran əsərinin aktyor heyəti yanvarın sonunda Türkiyəyə gələcək.